HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV


# Vergilər

№ 09 (903) ■ 7 mart 2018 www.vergiler.az Qiyməti: 60 qəp.


# İlk namizədlik vəsiqəsi Prezident İlham Əliyevə təqdim olundu

**Martın 5-də Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov prezidentliyə namizədlik vəsiqəsini İlham Əliyevə təqdim edib. M.Pənahov 2018-ci il aprelin 11-də Azərbaycanda keçiriləcək prezident seçkiləri ilə bağlı qeydə alınmış ilk namizəd kimi İlham Əliyevə təbriklərini çatdırıb və namizədlik vəsiqəsini ona təqdim edib.**

Dövlətimizin başçısı qarşıdan gələn prezident seçkilərinin şəffaf, ədalətli, Azərbaycan Respublikasının qanunlarına tam uyğun şəkildə keçiriləcəyinə və bu seçkilərin xalqımızın iradəsini əks etdirəcəyinə əminliyini ifadə edib, Mərkəzi Seçki Komissiyasının işinə uğurlar arzulayıb.

Seçkilərə hazırlıq işlərinin lazımi səviyyədə həyata keçirildiyini vurğulayan Məzahir Pənahov seçkilərin Seçki Məcəlləsinin tələblərinə tam uyğun, demokratik və şəffaf şəkildə keçirilməsi üçün bütün şəraitin yaradılması ilə bağlı Azərbaycan Respublikası vətəndaşlarının konstitusion hüquqlarının qarantı kimi Prezident İlham Əliyevə minnətdarlığını bildirib.



# Paytaxtda bir neçə yeni obyekt istifadəyə verilib

## Açılış mərasimlərində Birinci vitse-prezident Mehriban Əliyeva iştirak edib

**Martın 5-də Bakının Xəzər rayonunun Mərdəkan qəsəbəsində Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş yeni tədris korpusu istifadəyə verilib.**

Yeni tədris ocağının açılış mərasimində iştirak edən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevaya bildirilib ki, Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin fəaliyyətə başlaması ilə Azərbaycan Respublikasının sərhəd təhlükəsizliyini təmin edəcək ixtisaslı zabit kadrların hazırlanması üçün 12 illik təhsil dövrünü əhatə edən mükəmməl hərbi tədris sistemi formalaşıb. Yeni korpus istifadəyə verildikdən sonra burada təhsil alacaq kursantların sayının gələcəkdə 700 nəfərə çatdırılması mümkün olacaq.

Birinci vitse-prezident Mehriban Əliyeva hərbi vətənpərvərlik sinfində I kurs - 5-ci sinifdə təhsil alan kursantlarla görüşüb. Burada təhsil alanlar onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər, Azərbaycana ləyaqətli vətəndaş və peşəkar zabit kimi xidmət edəcəklərini qeyd ediblər. Sonra kursantlar Mehriban Əliyevaya xatirə hədiyyəsi təqdim ediblər. Birinci vitse-prezident kursantlara dərslərində uğurlar, Vətənə layiqli övlad olmaları və gələcəyin peşəkar zabiti kimi yetişmələrini arzulayıb.

---

Martın 5-də Bakının Xəzər rayonunun Mərdəkan qəsəbəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir edilən «İnci» körpələr evi-uşaq bağçasının binası istifadəyə verilib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva açılışda iştirak edib.

Bağçada yaradılan şəraitlə tanış olan Mehriban xanım Əliyevaya məlumat verilib ki, binanın əsaslı təmirinə 2016-cı ilin iyul ayından başlanılıb. Əsaslı təmir işlərindən sonra bağçada fəaliyyət göstərən qrupların sayı 12-yə çatdırılıb. İndi burada 2 yaşdan 6 yaşadək 230 uşağın təlim-tərbiyəsi ilə peşəkar heyət məşğul olacaq. Qruplardan 8-i Azərbaycan, 4-ü isə rus bölmələrinə aiddir. Məktəbəqədər təhsil müəssisəsində dərnək kimi ingilis dili qrupu da fəaliyyət göstərir. Uşaq bağçası zəruri mebel-inventar və avadanlıqla təchiz edilib. Binada videomüşahidə, yanğınxəbərverici sistemlər quraşdırılıb.

---

Həmin gün Mehriban xanım Əliyeva Xəzər rayonunun Şağan qəsəbəsində yeni inşa edilən Mədəniyyət Mərkəzinin açılış mərasimində də iştirak edib. Məlumat verilib ki, iki mərtəbədən ibarət Mədəniyyət Mərkəzinin binasının inşasına 2014-cü ildə başlanılıb. Ən yüksək səviyyədə aparılan tikinti işləri nəticəsində Mərkəzdə 200 yerlik tamaşa zalı, kinozal, kinoproyeksiya, qrim otağı, rəssam emalatxanası, musiqi dərnəyi, oxu zalı, kitab fondu, tətbiqi incəsənət, ədəbiyyat, evdarlıq dərnəkləri, rəqs zalı, 41 yerlik amfiteatr, işıq aparatları və səs operator otaqları yaradılıb.

Son illərdə ölkədə mədəniyyətin inkişafı ilə bağlı həyata keçirilən layihələrin bariz nümunəsinə çevrilən bu mədəniyyət ocağının yeni binası, ilk növbədə, zəngin Azərbaycan incəsənətinin, bütövlükdə mədəniyyətinin gənc nəsil arasında təbliği işinə xidmət edir. Digər tərəfdən, bu hadisə mədəniyyətin inkişafının, onun infrastrukturunun yaradılmasının hər zaman dövlətin diqqət mərkəzində olduğunu göstərir.



---

Martın 6-da Bakının Səbail rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı surətdə yenidən qurulan 157 nömrəli uşaq bağçasının açılışı olub. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva açılışda iştirak edib.

Bayıl yaşayış sahəsində yerləşən uşaq bağçasının ikimərtəbəli binası 100 il əvvəl inşa olunmuşdu. Yüz uşağın tərbiyə aldığı binanın əsaslı təmirə ehtiyacı var idi. Bina sökülərək onun yerində üçmərtəbəli müasir bina tikilib. Burada işlər yüksək keyfiyyətlə və zövqlə yerinə yetirilib. Beləliklə, hazırda uşaq bağçasındakı şərait ən müasir tələblərə uyğunlaşdırılıb. Binanın giriş hissəsi, foye, qrup otaqları və zallar burada tərbiyə alan azyaşlılara uyğun xüsusi dizaynla işlənib. Otaqlar və dəhlizlər uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilib, qrup otaqları zəruri inventarla, mebel dəstləri ilə təchiz edilib.

Ümumi sahəsi təxminən 2 min kvadratmetrə yaxın olan bağçanın binasında 110 uşaq tərbiyə alacaq. Bağçada uşaqların təlim-tərbiyəsi ilə ümumilikdə 25 nəfər məşğul olacaq. Buradakı 5 qrupun hər biri üçün geniş oyun və yataq otaqları və digər zəruri otaqlar, həmçinin musiqi və əyləncə zalları, tibb kabineti, müasir avadanlıqla təchiz olunmuş mətbəx və yeməkxana tikilib. Bir sözlə, bağçada yaradılan şərait uşaqların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmağa imkan verəcək, həmçinin onların bilikli və zəngin dünyagörüşünə malik bir vətəndaş kimi formalaşmasında mühüm rol oynayacaq. Binada müşahidə kameraları, yanğındanmühafizə sistemi quraşdırılıb. Bağçanın yerləşdiyi ərazidə genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, müxtəlif çiçək və gül kolları, ağaclar əkilib.

---

Həmin gün Bakının Nərimanov rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı şəkildə yenidən qurulan 80 saylı körpələr evi-uşaq bağçasının açılışı olub. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva açılışda iştirak edib.

Bağçada yaradılmış şəraitlə tanış olan Mehriban xanım Əliyevaya məlumat verilib ki, əsaslı yenidənqurmadan sonra burada Azərbaycan və rus bölmələri ilə yanaşı, pilot layihə kimi ingilisdilli qrup da yaradılıb. Bağçada yaş yarımdan 6 yaşadək uşaqların təlim-tərbiyəsi ilə məşğul olmaq üçün bütün imkanlar var. Binada videomüşahidə, yanğınxəbərverici və müasir işıqlandırma sistemləri quraşdırılıb. Həyətyanı ərazidə geniş abadlıq işləri aparılıb, həmişəyaşıl ağaclar əkilib, təbii ot örtüyü salınıb, uşaqların istirahəti üçün kölgəliklər və əyləncə qurğuları quraşdırılıb, balacaların sevimli cizgi filmlərinin qəhrəmanlarının heykəlləri qoyulub.

# Prezident İlham Əliyev Azərbaycan qadınlarını təbrik edib

Hörmətli xanımlar!

Sizi, bütün Azərbaycan qadınlarını 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edirəm. Hər birinizə cansağlığı, səadət və işlərinizdə nailiyyətlər arzulayıram!

Sivilizasiyaların qovuşuğunda özünün misilsiz mədəni-mənəvi sərvətlər xəzinəsini yaratmış xalqımızın bu çoxəsrlik zəngin irsinin yaşadılmasında, milli düşüncəmizin parlaq ifadəçisinə çevrilmiş dilimizin saflığının qorunub saxlanılmasında analarımızın müstəsna xidmətləri vardır. Ədəbiyyatımızda daim gözəlliyin və zərifliyin mücəssəməsi, sədaqətin və ülviliyin rəmzi kimi vəsf olunan dərin mənəviyyatlı Azərbaycan qadını, həmçinin güclü iradəsi, vətənpərvərliyi və fədakarlığı ilə seçilərək yurdun mübarizə salnaməsində silinməz izlər qoymuşdur. Keçmişimizin mürəkkəb sosial-siyasi dəyişikliklərə məruz qaldığı müəyyən dövrlərdə o, həmişə təmkinlilik nümayiş etdirməklə cəmiyyətin sarsılmaz mənəvi dayağı olduğunu sübuta yetirmişdir.

Yüzüncü ildönümünü təntənə ilə qeyd etməyə hazırlaşdığımız Azərbaycan Xalq Cümhuriyyətinin Şərq aləmində ilk dəfə qadınlara seçmək və seçilmək hüququ verməsi məhz ictimai-siyasi fikir və mədəniyyət tariximizin görkəmli simalarının cəmiyyətin ahəngdar inkişafında taleyüklü məsələlərin ədalətli həllində qadınların fəaliyyətini layiqincə qiymətləndirmələrinin nəticəsidir. Ötən müddət ərzində Azərbaycan xanımları maarifpərvər sələflərinin ənənələrini şərəf və ehtiramla davam etdirmiş, müasirləşmə yolunda çoxsaylı müvəffəqiyyətlər qazanmış və müstəqillik naminə ümumxalq hərəkatının ön sıralarında olmuşlar.

Dövlətçiliyimizin əsaslarının möhkəmləndirilməsinə və ölkəmizin hərtərəfli yüksəlişinin təmin olunmasına yönəlmiş yaradıcı potensialınızı siz bu gün də uğurla gerçəkləşdirməkdəsiniz. Dinamik sosial-mədəni həyatımızın fəal iştirakçıları olaraq sizin milliliklə müasirliyin vəhdətində indiki yüksək nüfuzunuz və ictimai mövqeyinizlə fəxr edə bilərik. Əminəm ki, müqəddəs ailə dəyərlərimizin toxunulmazlığı keşiyində dayanmaqla bərabər gənc nəslin doğma yurdumuza və milli ideallarımıza bağlılıq ruhunda tərbiyəsi üçün bundan sonra da qüvvənizi əsirgəməyəcək, ictimai-mənəvi mühitimizin davamlı zənginləşməsinə yeni-yeni töhfələr verəcəksiniz.

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV,**
Azərbaycan Respublikasının Prezidenti

*Bakı şəhəri, 6 mart 2018-ci il.*

# Rəsmi xronika

■ Martın 5-də Prezident İlham Əliyev Mərakeş Krallığının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Nasser Bouritanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nasser Bourita bildirib ki, ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının ildönümü ərəfəsində Mərakeşin mərhum Kralı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Kasablankada tarixi görüşünün keçirilməsinin 25 illiyinin qeyd edilməsi ilə bağlı tədbirlər keçiriləcək. Bu tarixi görüşü ölkələrimiz arasında çox yaxşı əlaqələrin qurulmasının əsası kimi dəyərləndirən qonaq bu gün Prezident İlham Əliyevlə Mərakeş Kralının bu yolu uğurla davam etdirdiklərini vurğulayıb.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin möhkəm əsaslar üzərində uğurla inkişaf etdiyini bildirərək, bu münasibətlərin təməlinin ümummilli lider Heydər Əliyev və Mərakeşin mərhum Kralı tərəfindən qoyulduğunu vurğulayıb. İqtisadi əlaqələrə toxunan dövlətimizin başçısı bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu bildirib, bu baxımdan qarşılıqlı ticarətin artırılmasının, investisiya imkanlarının araşdırılmasının önəmli olduğunu vurğulayıb.

■ Martın 6-da Prezident İlham Əliyev Moskva Akademik Satira Teatrının direktoru Məmmədəli Ağayevi qəbul edib. Söhbət zamanı dövlətimizin başçısı M.Ağayevin Azərbaycan Respublikasının yüksək ordeni olan «Dostluq» ordeni ilə təltif edildiyini vurğulayıb. Rusiya-Azərbaycan əlaqələrinin inkişafında onun rolunu yüksək qiymətləndirən Prezident İlham Əliyev bildirib ki, ikitərəfli münasibətlərimizin genişlənməsində mədəniyyət əlaqələri xüsusi önəm kəsb edir.

Bir çox dövlət mükafatlarına layiq görüldüyünü qeyd edən Məmmədəli Ağayev Azərbaycan Respublikasının «Dostluq» ordeninin onun üçün xüsusi dəyər daşıdığını bildirib. Qeyd edib ki, o, bütün ömrünü teatr sahəsində Azərbaycan-Rusiya əməkdaşlığının möhkəmlənməsi işinə həsr edib və bundan sonra da hər iki ölkənin mədəni əlaqələrinin yüksək səviyyədə olması üçün səylərini əsirgəməyəcək.


Vergilər Nazirliyində iclas keçirilib — səh. 2

Dünya Bankının tövsiyələri həllini tapır — səh. 3

Azərbaycana turist səfərləri xeyli asanlaşıb — səh. 4

Kiçik sahibkarların böyük arzuları — səh. 5

# Vergilər Nazirliyində iclas keçirilib




**Mart ayının 1-də Vergilər Nazirliyində nazirliyin rəhbər vəzifəli şəxslərinin və yerli vergi orqanlarının rəhbərlərinin iştirakı ilə geniş tərkibli iclas keçirilib.**

İclasda çıxış edən vergilər naziri Mikayıl Cabbarov vergi orqanlarının fəaliyyətində yeni yanaşmalar və vergi xidmətinin qarşısında duran vəzifələrin icrası, vergi əməkdaşlarının fəaliyyətinə yeni tələblər, vergi orqanlarına etimadın yüksəldilməsi və digər məsələlərə toxunub. Qeyd olunub ki, müasir dövrdə vergi siyasəti yalnız fiskal funksiyaları yerinə yetirmir, həm də iqtisadi inkişafın bir alətidir. Bu baxımdan, atılacağını, vergi əməkdaşlarının yüksək səviyyəli xidmət göstərməsi üçün onlara normal iş rejiminin təmin ediləcəyini vurğulayıb.

Vergi əməkdaşlarından yüksək peşəkarlığın, işgüzar etikanın, vergi ödəyicisinə yanaşmada öz məsuliyyətini dərk etmələrinin tələb olunduğunu qeyd edən vergilər naziri, bütövlükdə, vergi sisteminə qarşı hörmət və inamın artırılması üçün çox çalışmaq lazım gəldiyini, güclü dövlətin vətəndaşı və qulluqçusu olmağın digər üstünlüklər əldə etməkdən daha vacib və şərəfli olduğunu bildirib.

Vergi ödəyiciləri ilə münasibətlərin qarşılıqlı hörmət və etimada əsaslanmalı olduğunun vacibliyini diqqətə çatdıran nazir bir daha vurğulayıb ki, ilk növbədə



vergi orqanlarının fəaliyyəti sahibkarlığın inkişafına dəstək verməlidir. Bu xüsusda vergi orqanlarının əməkdaşlarına tələblər daha da artır. Vergi sisteminin ən əsas dəyərinin zəngin maddi-texniki baza, müasir informasiya texnologiyalarına əsaslanan iş üsullarına malik olması deyil, bu sistemdə çalışan insanlar olduğunu ön plana çəkən nazir vergi xidmətində peşəkar və ləyaqətli kadrlara üstünlük veriləcəyini, insan resurslarının inkişaf etdirilməsi istiqamətində addımlar vergi uçotunun dəqiq aparılmasını, auditin real funksiyasının bərpa olunmasını, vergilərin yığılmasından vergilərin ödənilməsinə keçidin təmin edilməsini, vergi ödəyicilərinə göstərilən xidmətlərin səviyyəsinin və spektrinin müasir tələblərə uyğun olaraq genişləndirilməsini təmin etmək lazımdır.

M.Cabbarov qeyd olunan məsələlərlə bağlı yerlərdə görüşlər keçirilməsi və onların mahiyyətinin vergi ödəyicilərinə çatdırılması barədə tapşırıq verib.

# İqtisadi əməkdaşlıq məsələləri müzakirə edilib

Martın 1-də vergilər naziri Mikayıl Cabbarov Almaniya Federativ Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Mixael Kindsqrab ilə görüşüb.

Görüşdə hər iki ölkənin iqtisadi partnyorluqda maraqlı olduğu vurğulanıb, Azərbaycanda aparılan iqtisadi islahatlar, ölkələrarası ticarətin genişləndirilməsi və qarşılıqlı investisiyaların yatırılması sahəsində görülən işlər, eləcə də İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, eləcə də Avropadaxili Vergi Administrasiyaları Təşkilatı ilə əməkdaşlıq çərçivəsində əldə edilmiş uğurlar qeyd olunub.

Söhbət zamanı iki ölkənin vergi orqanları arasında mövcud əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb.

# İkiqat vergitutmanın aradan qaldırılması ilə bağlı sənəd imzalanıb

Martın 5-də Bakıda keçirilən Azərbaycan-Mərakeş Hökumətlərarası Birgə Komissiyanın ilk iclası çərçivəsində bir sıra sənədlər, o cümlədən «Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya», «Azərbaycan Respublikası Hökuməti ilə Mərakeş Krallığı Hökuməti arasında təhlükəsizlik və cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş», «Azərbaycan Dəmir Yolları» QSC ilə Mərakeş Milli Dəmiryolları arasında Niyyət Protokolu» və «Azərbaycan Dövlət Dəniz Akademiyası ilə Dənizçilik Araşdırmaları üzrə Mərakeş Ali İnstitutu arasında Niyyət Protokolu» imzalanıb.

# “ABAD”ın fəaliyyəti genişlənir

Sahibkarlığa Kömək Milli Fondu (SKMF), «ABAD» (Ailə Biznesinə Asan Dəstək) publik hüquqi şəxs və «Azər-TürkBank» ASC arasında birgə əməkdaşlığa dair niyyət protokolu imzalanıb.

Protokola əsasən, SKMF «ABAD»çıların investisiya layihələrinin dövlətin güzəştli kreditləri hesabına dəstəklənməsini təmin edəcək, «Azər-TürkBank» ASC həmin kreditləri illik faiz dərəcəsi 4%-dən artıq olmamaqla sahibkarlara çatdırılmasında müvəkkil bank rolunu oynayacaq, «ABAD» publik hüquqi şəxs isə maliyyələşdirilmiş layihələr hesabına əldə olunmuş məhsulun marketinqinin həyata keçirilməsində sahibkarlara kömək göstərəcək.

SKMF-nin icraçı direktoru Şirzad Abdullayevin sözlərinə görə, SKMF indiyədək 34.600-dən çox sahibkarın ümumi dəyəri 4,5 milyard manat olan investisiya layihələrinin maliyyələşdirilməsinə 2,1 milyard manatdan artıq güzəştli kredit verib. Kreditlərin 75%-i respublikanın regionlarının, 25%-i isə Bakı qəsəbələrinin payına düşür. Maliyyələşdirilmiş layihələrin 90%-ni kiçik həcmli kreditlər təşkil edir.

Niyyət protokolu üzrə birgə əməkdaşlığın üstünlüklərini qeyd edən Şirzad Abdullayev bildirib ki, «ABAD»çıların investisiya layihələrinin dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilməsi əlavə imkanlar yaradacaq, özəl sektorun, o cümlədən kiçik və orta sahibkarlığın inkişafında əhəmiyyətli rol oynayacaq.

«ABAD» publik hüquqi şəxsin direktoru Rüfət Elçiyevin sözlərinə görə, qurum kiçik və orta sahibkarlığın inkişafı, əhalinin məşğulluq səviyyəsinin artırılması, rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək vermək məqsədilə sosialyönümlü layihələr həyata keçirir. «ABAD» mərkəzlərində ailə təsərrüfatlarının formalaşdırılması və inkişaf etdirilməsi üzrə texniki, biznes-konsaltinq, maliyyə, marketinq, logistika və satışın təşkili, brendinq, dizayn və hüquqi yardım üzrə dəstək mexanizmləri tətbiq olunur. «ABAD»çıların istehsal etdiyi məhsulların sertifikatlaşdırılması «bir pəncərə» prinsipi əsasında aparılır.

**AYTƏN**

# Vergi ödəyiciləri ilə görüşlər

Vergi sistemində şəffaflığın təmin edilməsi, vergi orqanlarında idarəetmə prinsiplərinin yenidən təşkili və müasir vergi inzibatçılığının formalaşdırılması, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın yüksəldilməsi istiqamətində Vergilər Nazirliyi tərəfindən müəyyən işlər görülüb, əsas hədəflər, gələcək iş fəaliyyətinin əsas istiqamətləri ictimaiyyətə açıqlanıb. Bu məsələlərin birbaşa vergi ödəyicilərinə çatdırılması və ərazi vergi orqanlarının əməkdaşlarına müvafiq tapşırıqların verilməsi məqsədilə nazirliyin rəhbər vəzifəli şəxsləri regionlara ezam ediliblər.

Mart ayının 5-dən 9-dək Vergilər Nazirliyinin bütün ərazi vergi orqanlarında, nazirlik yanında Milli Gəlirlər Departamenti, Bakı şəhəri Lokal Gəlirlər Departamenti və Bakı şəhəri Kiçik Sahibkarlıqla İş Departamentində sahibkarlarla görüşlərin keçirilməsi nəzərdə tutulur.

# Vergi siyasətində yeni çağırışlar

*Bu sahədəki islahatların əsasını inzibatçılıqdan qarşılıqlı etimada əsaslanan əməkdaşlıq modellərinə keçid təşkil edir*

**Azərbaycan iqtisadiyyatında özəl sahibkarlığın rolunun artması, qeyri-neft sektorunun inkişafının prioritet elan edilməsi vergi siyasətində çevik və şəffaf mexanizmlərin tətbiqini zəruri tələbə çevirib. Bu tələbatın ödənilməsi üçün ən vacib şərtlərdən biri isə vergi orqanları ilə vergi ödəyiciləri arasında qarşılıqlı etimada və əməkdaşlığa söykənən münasibətlərin formalaşdırılmasıdır. Artıq vergi sahəsində aparılan kompleks islahatların konturları ictimaiyyətə elan edilib. Vergilər Nazirliyinin təşkilatçılığı, dövlət qurumlarının, iri və orta şirkətlərin, sahibkarların ictimai birliklərinin nümayəndələrinin, eləcə də millət vəkillərinin və ekspertlərin iştirakı ilə keçirilmiş «Vergilər. Şəffaflıq. İnkişaf» adlı konfransda vergi islahatlarının əsas hədəfləri elan olunub.**

### Şəffaflığa əsaslanan işgüzar əməkdaşlıq

Yeni konsepsiyada prioritet sahə kimi bir neçə istiqamət müəyyən edilib: buraya vergi inzibatçılığının yumşaldılması, vergi orqanlarının sahibkarlarla quracağı iş prinsiplərində şəffaflığa əsaslanan işgüzar əməkdaşlıq məsələləri daxildir. Vergi Məcəlləsinə də müvafiq dəyişikliklərin ediləcəyi gözlənilir. Martın 31-dək müvafiq qurumlardan və vergi subyektlərindən təkliflər toplanaraq hökumətə təqdim olunacaq. Əsas hədəf vergi daxilolmalarının ağırlığını üzərinə götürməli olan biznes sektorunun inkişafına hərtərəfli dəstək yolu ilə vergi gəlirlərinin artmasına nail olmaqdır.

Konfransda qeyd edildiyi kimi, bu sahədəki islahatların əsasını vergi inzibatçılığının təkmilləşdirilməsi, daha çevik idarəetmə mexanizmlərinin tətbiqi və yeni çağırışlara cavab verən vergi sisteminin formalaşdırılması təşkil edəcək. Nazirliyin strukturunun təkmilləşdirilməsi, institusional dəyişikliklərin aparılmasına istiqamətlənən islahatlar ölkədə sahibkarlıq və investisiya mühitinin yaxşılaşdırılması, biznesin rastlaşdığı süni maneələrin aradan qaldırılması, cəmiyyətdə vergi mədəniyyətinin formalaşdırılması, partnyorluq münasibətlərinin tərkib hissəsi olaraq vergi ödəyicilərinin öz öhdəliklərini yüksək səviyyədə yerinə yetirməsi məqsədi daşıyır.

> Əsas hədəf vergi daxilolmalarının ağırlığını üzərinə götürməli olan biznes sektorunun inkişafına hərtərəfli dəstək yolu ilə vergi gəlirlərinin artmasına nail olmaqdır

### Çevik, effektli və səmərəli...

Vergi orqanları ilə vergi ödəyiciləri arasında qarşılıqlı inama əsaslanan səmərəli əməkdaşlıq modeli kimi işlək mexanizm var: vergi partnyorluğu sazişi. Bir neçə ay sonra həmin mexanizmin tətbiqinin beş ili tamam olacaq. Bu o deməkdir ki, həm vergi orqanları, həm də biznes strukturları vergi partnyorluğu sazişinin tələbləri çərçivəsində birgə əməkdaşlıq təcrübəsinə malikdirlər. Yeni mərhələdə isə vergi orqanları ilə vergi ödəyicilərinin qarşılıqlı əməkdaşlıq modeli olan bu mexanizmin əhatə dairəsi genişləndiriləcək.

Xatırladaq ki, Nazirlər Kabineti «Vergi partnyorluğu Sazişinin forması»nı və «Vergi partnyorluğu Sazişinin bağlanması Qaydaları»nı 2013-cü il iyunun 19-da təsdiq edib. Saziş vergi orqanı ilə vergi ödəyicisi arasında vergi risklərinin azaldılması məqsədilə könüllü şəkildə bağlanılmış niyyət razılaşmasıdır. Sazişin əsas məqsədləri sahibkarlığa lüzumsuz müdaxilələrin qarşısını almaqla onun inkişafını stimullaşdırmaq, əməkdaşlığa, qarşılıqlı etibarlılığa və şəffaf münasibətlərə əsaslanan birgə fəaliyyəti təmin etməkdir. Partnyorluq sazişi vergilərin ödənilməsi ilə bağlı könüllü əməletmə səviyyəsinin artırılması istiqamətində əməkdaşlıq etmək, ədalətli, çevik, effektiv və səmərəli vergi nəzarəti yaratmaq, vergi risklərini minimallaşdırmaq məqsədi daşıyır. Qaydalara əsasən, bu sazişi imzalayan vergi ödəyicisi:

- zəruri məlumatları və vergi orqanlarına sənədləri təqdim etmək, özünün və ya filiallarının elektron daşıyıcılarda olan məlumatlarına birbaşa və ya məsafədən çıxış imkanı yaratmaq;
- mühasibat proqramı təminatından istifadə etməklə uçotu təkmilləşdirmək, daxili nəzarət və vergi risklərinin təhlili sistemlərini yaratmaq;
- vergilərin hesablanması üçün zəruri olan mühasibat uçotu sənədlərinin (kağız və elektron daşıyıcılarının), eləcə də əldə edilmiş gəlirləri (çəkilmiş xərcləri) və ödənilmiş (tutulmuş) vergiləri təsdiq edən mühasibat uçotu sənədlərinin (kağız və elektron daşıyıcılarının) qanunvericiliklə müəyyən olunmuş müddət ərzində qorunub saxlanılmasını təmin etmək;
- saziş imzalandığı tarixədək aparılan vergi nəzarəti tədbirləri zamanı aşkara çıxarılan çatışmazlıqların gələcəkdə təkrarlanmasına yol verməmək;
- vergi hesabatlarının vaxtında təqdim olunmasını, vergilərin hesablanmasını və ödənilməsini təmin etmək;
- işçilərlə əmək müqavilələri bağlamaq və hesabatlarda işçilərə verilən əməkhaqqının real məbləğini əks etdirmək öhdəliyi daşıyır.

### Vergi partnyorluğu sazişindən sahibkarın qazandıqları

2017-ci ildə vergi orqanlarına partnyor ödəyici statusunun alınması üçün müraciət edən və ya təsdiq edilmiş qaydalarda göstərilən meyarlara uyğun olduğu müəyyən edilən 480 (o cümlədən Bakı şəhəri üzrə 217) vergi ödəyicisinə «Partnyor vergi ödəyicisi statusunun əldə edilməsi barədə» bildirişlər təqdim olunub. İndiyədək partnyor ödəyicilərə telefon vasitəsilə 4646 məlumatlandırma xidməti göstərilib, 7786 bildiriş təqdim olunub, 340 ünvanlı xidmət göstərilib, 680 partnyor vergi ödəyicisi vergi orqanları tərəfindən keçirilən tədbirlərdə iştirak edib, 76 partnyor vergi ödəyicisinə kitabça, buklet və s. nəşrlər təqdim olunub.

Vergi orqanları isə ödəyicinin bu sənəddə nəzərdə tutulmuş öhdəliklərinin icrasına nəzarət etmək, vergi öhdəliklərinin icrasının monitorinqini aparmaq, ödəyicinin fəaliyyətində əvvəllər aşkarlanmış pozuntuların gələcəkdə təkrarlanmaması məqsədilə tövsiyə vermək öhdəliyi daşıyır. Vergi ödəyicisi öhdəliklərə əməl etmədikdə, vergidən yayınma mövcud olduqda vergi nəzarəti tədbirləri aparmaq, qarşı tərəfi vergi qanunvericiliyi və vergi inzibatçılığında aparılan dəyişikliklər barədə məlumatlandırmaq, öhdəliklərin yerinə yetirilməsində metodiki köməklik göstərmək vergi orqanlarının vəzifəsinə aiddir.

Vergi partnyorluğu sazişi sahibkarlar üçün bir çox üstünlüklər yaradır. Onlardan ən mühümü budur ki, sazişə qoşulan sahibkar əsassız vergi yoxlamalarından sığortalanmış olur. Nümunəvi vergi ödəyicisi olmaq isə sahibkara əlavə güzəştlər qazandırır, vergi orqanları ilə yarana biləcək mübahisələrin həllinə çəkilən inzibatçılıq xərclərini azaldır.

**Elxan SALAHOV**

# Müasir vergi inzibatçılığı ilə bağlı təlim

Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Vergilər Nazirliyinin dəstəyi ilə vergi sahəsində təlim kurslarına start verilib. «Müasir vergi inzibatçılığının əsas trendləri» mövzusunda keçirilən təlimləri vergi sahəsinin təcrübəli alim və mütəxəssisləri aparırlar.

UNEC Biznes Mərkəzinin direktoru Asəf Əsədov bildirib ki, məqsəd tələbələri vergi inzibatçılığının əsas trendləri, inkişaf istiqamətləri, müasir analitik texnologiyalar barədə məlumatlandırmaq və bilik menecmenti yaxınlaşmalarının rolunu gücləndirməkdir.

Təlimin ilk günündə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Akif Musayev vergitutmanın tarixi, əsas anlayışları, dövlət üçün əhəmiyyəti, hüquqi bazası və beynəlxalq vergitutma ilə bağlı mövzularda mühazirə oxuyub.

Təlimlər martın 19-dək davam edəcək.

# Dünya Bankının tövsiyələri həllini tapır

**Dünya Bankı Azərbaycan hökumətinə kiçik və orta sahibkarların maliyyə mənbələrinə çıxış imkanlarının genişləndirilməsi və maliyyə xidmətləri ilə təminatının yaxşılaşdırılması ilə bağlı tövsiyələr verib**

Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Navid Naqvi bildirib ki, biznes və investisiya mühitinin yaxşılaşdırılması sahəsində əlavə tədbirlərin görülməsinə ehtiyac var. Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasını, lisenziyaların sayının kəskin azaldılmasını və prosedurların sadələşdirilməsini yüksək qiymətləndirən bankın rəsmisi kiçik və orta sahibkarlığın inkişafına maliyyə dəstəyinin artırılmasının vacibliyini vurğulayıb. Dünya Bankının «Doing Business 2018» hesabatında da maliyyə resurslarına çıxış imkanı biznesin aparılması üçün problemli amillərdən biri kimi göstərilib və bununla bağlı Azərbaycan hökumətinə tövsiyələr verilib. Hesabatda diqqət yönəldilən məsələlərdən biri də kiçik biznesin kredit almaq imkanının asanlaşdırılmasıdır. Bank maliyyə əlçatanlığının təmin olunmasında Azərbaycanın müvafiq qurumları və özəl sektorla birgə əməkdaşlıq etməyi nəzərdə tutur.

İqtisadçı Rəşad Həsənovun sözlərinə görə, «Kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»ndə əksini tapmış islahatların mühüm hədəflərindən biri Kredit Zəmanət Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsidir: «2018-ci ildən fəaliyyətə başlayan Kredit Zəmanət Fondu tərəfindən sahibkarlıq sektorunun kredit əldə etməsi ilə bağlı əlverişli və sadə mexanizmlər qurulacaq, nəticədə bu sahədə sahibkarların əlçatanlıq imkanları xeyli artacaq. Fond sahibkarların manatla aldıqları kreditlərə hesablanmış faizlərə görə dövlət büdcəsinin vəsaiti hesabına subsidiya da verəcək. Faiz subsidiyası sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı iş adamlarının müvəkkil banklardan manatla aldıqları kreditlər üzrə ödənilmiş faizlərin bir hissəsinə görə dövlət tərəfindən əvəzsiz veriləcək».

Maliyyə sahəsi üzrə ekspert Orxan Məmmədovun sözlərinə görə, yaxın günlərdə Azərbaycanda Özəl Kredit Bürosu da fəaliyyətə başlayacaq və bu qurum biznesə maliyyə xidmətlərinin yaxşılaşdırılmasına, kredit təşkilatlarının müştərilərlə əlaqələrinin müasir formada qurulmasına, xidmətin keyfiyyətinin artırılmasına dəstək verəcək. Yeni strukturun yaradılması kredit və bank bazarında risklərin azalmasına da səbəb olacaq. Bundan başqa, «Sahibkarlıq fəaliyyəti haqqında» Qanuna edilmiş dəyişikliklərə əsasən, 2018-ci ildən sahibkarlıq subyektlərinin meyarlara görə bölgüsü aparılacaq. Mikro, kiçik, orta və iri subyektlərin hər birinə ayrıca yanaşma tətbiq ediləcək. Məqsəd sahibkarlıq subyektlərinə dövlət dəstəyi tədbirlərinin artırılması, hər qrupa aid sahibkarlıq subyektinin ayrı-ayrılıqda dəstəklənməsinə nail olmaqdır. İndiyədək sahibkarların konkret meyarlara bölünməməsi dövlət tərəfindən verilən maliyyə güzəştləri, digər imtiyazlar zamanı bir sıra hallarda problemlərə gətirib çıxarırdı, kiçik sahibkarlar ümumi sahibkarlığa dəstək tədbirlərindən kənarda qalırdı. Yeni meyarlar bu cür pərakəndəliyi aradan qaldıracaq, hər bir sahibkarlıq subyektinə fərdi yanaşmaq mümkün olacaq. Beləliklə, Dünya Bankının Azərbaycan hökuməti qarşısında irəli sürdüyü tövsiyələrdən bir neçə mühüm istiqaməti öz həllini tapıb.

**Məqsəd sahibkarlıq subyektlərinə dövlət dəstəyi tədbirlərinin artırılması, hər qrupa aid sahibkarlıq subyektinin ayrı-ayrılıqda dəstəklənməsinə nail olmaqdır**

Qeyd edək ki, Dünya Bankı Azərbaycanın vergi islahatlarına da dəstək vermək niyyətindədir. Bankla nazirlik arasında qarşıdakı dövr üçün əməkdaşlıq planına əsasən, vergi güzəştləri və azadolmaların monitorinqinə dəstək, onların səmərəliliyinin qiymətləndirilməsi, transfert qiymətləri, vergitutma bazasının azaldılması və mənfəətin başqa ərazilərə köçürülməsi ilə mübarizə tədbirlərinin icrası sahəsində nazirliyin əməkdaşlarının bacarıqlarının artırılması və potensialının gücləndirilməsinə, vergi siyasətinin təhlilinə dəstək göstəriləcək.

**E.CƏFƏRLİ**

# Qeyri-neft məhsullarının ixracı artır

*İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin «İxrac icmalı»nın fevral buraxılışı təqdim olunub*

2018-ci ilin yanvar ayı ərzində qeyri-neft sektoru üzrə ixrac 123 milyon ABŞ dolları təşkil edib. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə bu ilin yanvar ayında qeyri-neft sektoru üzrə ixrac 1/3 həcmdə artıb. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, ilin ilk ayı ərzində ən çox qeyri-neft məhsulları Rusiya Federasiyasına ixrac edilib (36,8 milyon ABŞ dolları). Yanvar ayı ərzində Türkiyəyə 23 milyon, İsveçrəyə 17,9 milyon, Gürcüstana 11,3 milyon və Çinə 4,4 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

Bu ilin yanvar ayı ərzində ixrac olunan qeyri-neft sektoru məhsulları arasında qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda) birinci yerdə olub (17 milyon ABŞ dolları). Bu siyahıda ikinci yeri xurma (13 milyon ABŞ dolları), üçüncü yeri isə xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen (9,7 milyon ABŞ dolları) tutub. Ümumiyyətlə isə yanvar ayı ərzində meyvə-tərəvəz ixracı 35 milyon, plastmass və ondan hazırlanan məmulatların ixracı 10 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 9 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 5 milyon, kimya sənayesi məhsullarının ixracı 3,6 milyon ABŞ dolları olub. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar ayında elektrik enerjisinin ixracı 86 faiz, meyvə-tərəvəzin ixracı 45 faiz, kimya sənayesi məhsullarının ixracı 36 faiz, pambıq ixracı 20 faiz artıb.

«İxrac icmalı»nın bu sayında qeyri-neft sektoru üzrə əsas ixracatçı şirkətlərin də reytinqi verilib. 2018-ci ilin yanvar ayında qeyri-neft sektoru üzrə qeyri-dövlət ixracatçı şirkətlərin siyahısında ilk onluqda «Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti»nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, «»Aqrodoctor» MMC, «MKT İstehsalat Kommersiya» MMC, «Qlaf Drillinq Saplay FZE» şirkətinin Azərbaycan Respublikasındakı filialı, «CTS-Agro» MMC, «Baku Steel Company» MMC, «Azagroeksport 2017» MMC, «Food export Şəmkir» MMC, «Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD» MMC və «İlham-M» MMC təmsil olunub. Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısında isə 8 şirkət fərqlənib. Bunlar SOCAR-ın «Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi», «Detal Alüminium» MMC, «Azergold» QSC, «Azərenerji» ASC, «Azərbaycan Hava Yolları» QSC, «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC, «Ərzaq Məhsullarının Tədarükü və Təchizatı» ASC, «Suraxanı Maşınqayırma Zavodu Törəmə» ASC-dir.

«İxrac icmalı»nda göstərilib ki, 2018-ci ilin yanvar ayında «Azərkosmos» ASC tərəfindən dünyanın 15 ölkəsinə peyk telekommunikasiya xidmətləri ixrac edilib. Cari ilin ilk ayında peyk telekommunikasiya xidmətlərinin (Azerspace-1) ixracından 423 min ABŞ dolları məbləğində gəlir əldə edilib. Bu sahədə xidmət ixracı yanvar ayında əsasən BƏƏ, Almaniya, Misir, Gürcüstan, Çin, Qırğızıstan, Kipr, CAR, Birləşmiş Krallıq, Ukrayna və digər ölkələrə olub.

**2018-ci ilin yanvar ayı ərzində «Azexport.az» portalına 81.5 milyon ABŞ dolları məbləğində ixrac sifarişləri daxil olub**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin departament rəhbəri Ramil Hüseyn bildirir ki, 2016-cı illə müqayisədə 2017-ci ildə Azərbaycana gələn xarici vətəndaşların aylar üzrə bank kartları vasitəsilə apardıqları əməliyyatların dəyəri 70 faiz artaraq 1 milyard 22 milyon manat təşkil edib.

İcmalda, həmçinin, 2018-ci ilin yanvar ayı ərzində «Azexport.az» portalına daxil olan ixrac sifarişləri barədə də məlumat verilib. Göstərilib ki, 2018-ci ilin yanvar ayı ərzində adıçəkilən portala 81.5 milyon ABŞ dolları məbləğində ixrac sifarişləri daxil olub. Ümumilikdə isə 2017-ci il 1 yanvar tarixindən 2018-ci il 31 yanvar tarixinə kimi dünyanın 78 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 556,6 milyon ABŞ dolları təşkil edib. 2018-ci ilin yanvar ayında portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya (22 faiz), Türkiyə (8 faiz), Ukrayna (8 faiz), Səudiyyə Ərəbistanı (6 faiz) və Birləşmiş Ərəb Əmirlikləri (6 faiz) qərarlaşıb. Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə məlum olub ki, cari ilin yanvar ayında ən çox ixrac sifarişi şərab, çay, fındıq ləpəsi, pomidor şirəsi, nar, nar konsentratı və alma olub. Həmçinin lobya, toyuq yumurtası, dekorativ güllər, kosmetik vasitələr, quru süd, dekorativ quşlar, qənnadı məhsulları, meyvə cemi, biyan kökü, mebel dəsti, mühərrik yağı, velosiped, pambıq yağı, boya məhsulları, pambıq toxumu (çiyid), kərpici və s. mallara da sifariş daxil olub.

Dünyada ilk dəfə Azərbaycanda onlayn vahid ixrac ərizəsinin tətbiqinə başlanılması, Kənd Təsərrüfatı Nazirliyinin dünya bazarlarına soğan ixracı ilə bağlı araşdırması, Azərbaycan məhsullarının «Gulfood 2018» Beynəlxalq Ərzaq Sərgisində təmsil olunması, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində «Digital Marketinq» mövzusunda təlim keçirilməsi, «Bir pəncərə» İxraca Dəstək Mərkəzinə müraciət edən sahibkarların sayının artması və s. məsələlər barədə məlumatlar da icmalda öz əksini tapıb.

**ELAN**

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə**, ww.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

VERGİLƏR NAZİRLİYİ

# Adın şərəflidir...

*Əziz xanımlar!*
*Sizi qarşıdan gələn 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edirik!*

Sabah hamımız üçün əziz bir bayramı qarşılayırıq. Bu bayramın harada, nə vaxt, kim tərəfindən və nə münasibətlə təsis olunmasından asılı olmayaraq, 8 Mart hər birimizin yaddaşının, ruhunun dərinliyində yer tutur. Dünyaya göz açdığımız vaxtdan bəri ilin bu günü yaddaşımızda ana sevgisinin möhtəşəmliyini, qadın gözəlliyinin ülviyyətini, qadın mərhəmətinin sonsuz hənirini həkk eləyən bir bayram kimi özünə yer tutub. Bu, hamımız üçün, sadəcə, bir «təqvim bayramı» deyil, sözün əsl mənasında, qəlblərimizin bayramıdır. «8 Mart» deyəndə qadınlar qarşısında borclu olduğumuzu düşünürük: gözəl, zərif, şəfqətli olduqlarına görə onlara diqqət və həssaslıq borcumuz var. Müdrik, təmkinli, zəhmətkeş və fədakar olduqlarına görə minnətdarlıq borcumuz var. Qayğılı dünyamıza bayram havası gətirdiklərinə görə isə təşəkkür və təbrik borcumuz var...

Müstəqil bir dövlət olaraq Azərbaycanın ən böyük nailiyyətlərindən biri də, heç şübhəsiz, bu gün qadınlarımızın dövlət və hökumət idarəetmə strukturlarının ən yüksək mövqelərində layiqincə yer tutmalarıdır. Bunun əsl mənası və əhəmiyyəti, sadəcə, «gender bərabərliyi» faktı olaraq qalmır, ölkəmizdəki ictimai münasibətlər sisteminin keyfiyyət baxımından yüksək inkişaf səviyyəsini əks etdirir. Elə bir inkişaf səviyyəsi ki, tarix boyu ulu mütəfəkkirlərimizin işıqlı ideallarından biri olub: «Qadın gülərsə, şu issız (kimsəsiz) mühitimiz güləcək, sürüklənən bəşəriyyət qadınla yüksələcək!..» - böyük Hüseyn Cavid belə yazırdı.

Hazırda Azərbaycanın vergi orqanlarında 630 nəfərə yaxın qadın çalışır ki, onların da 48 nəfəri yüksək rəhbər vəzifələr tutur. Bu gün vergi orqanlarında qadınlara göstərilən qayğı və diqqət, təbiətinə görə «sərt fəaliyyət sahəsi» hesab olunan bir sistemdə onlara məsul vəzifələr etibar edilməsi də məhz cəmiyyətimizin yetkinlik səviyyəsinin bir göstəricisi kimi qəbul olunmalıdır. Bu, hər şeydən öncə, qadınlarımızın qabiliyyət, bacarıq və səriştələrinə verilən layiqli qiymətdir.

Hörmətli oxucular! Hamımız adından, eləcə də qəzetimizin kollektivi adından bütün qadınları qarşıdan gələn bayram münasibətilə ürəkdən təbrik edir, onlara möhkəm cansağlığı, könül xoşluğu və həyatlarında, işlərində böyük uğurlar arzulayırıq...



### Tarixi arayış

İlk dəfə 1857-ci il martın 8-də Nyu-York şəhərində toxucu qadınlar zəhmət haqqının aşağı, iş şəraitinin pis olduğuna etiraz əlaməti olaraq əllərində boş qazanlar küçə yürüşünə çıxmışdılar.

1908-ci ildə ABŞ-da uşaq əməyinin ləğv edilməsi, iş şəraitinin yaxşılaşdırılması və qadınlara səsvermə hüququnun verilməsi tələbi ilə qadınların yeni bir etiraz nümayişi keçirildi. 1910-cu ildə isə Kopenhagendə təşkil edilmiş qadınların Beynəlxalq konfransında Klara Setkin (Almaniya Kommunist Partiyasının yaradıcılarından biri, qadın hüquqlarının müdafiəçisi olub) hər il 8 Mart Beynəlxalq Qadınlar Gününün bayram kimi qeyd olunması təklifini irəli sürdü.

8 Mart Rusiyada ilk dəfə 1913-cü ildə, Azərbaycanda isə sovet hakimiyyəti illərində qeyd olunmağa başlamışdır. 1966-cı ildən 8 Mart Beynəlxalq Qadınlar günü keçmiş sovet respublikalarında, eləcə də Azərbaycanda qeyri-iş günü kimi qəbul edilmişdir və bu ənənə hazırda da davam etdirilir.

1975-ci il BMT tərəfindən Beynəlxalq Qadınlar ili elan edilmiş və 8 Mart Beynəlxalq Qadınlar Günü kimi tanınmışdır. 1977-ci ildə isə BMT-nin Ümumi Qurultayında 8 Mart qadın hüquqları və beynəlxalq sülh günü olaraq qəbul edilmişdir...

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Azərbaycan İnvestisiya Şirkəti fəaliyyətə başladığı dövrdən indiyədək **1,2 milyard** dollar investisiya cəlb edib.
- Yanvarın 31-nə ölkədə fəaliyyət göstərən bankların cəmi aktivləri **28,169.7 milyon** manat, öhdəlikləri isə **24,367.9 milyon** manat təşkil edib.
- Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən aprelin 3-də dövlət əmlakının özəlləşdirilməsi üzrə növbəti hərraca müxtəlif çeşidli **184** dövlət əmlakı çıxarılacaq.
- Bu ilin yanvarında Bakının ictimai iaşə dövriyyəsi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 4,0% artaraq **62,4 milyon** manat olub.
- Dövlət Gömrük Komitəsinin açıqladığı statistik rəqəmlərə əsasən, 2018-ci ilin yanvar ayında dəniz nəqliyyatı ilə **124 min 717 ton** yük daşınıb ki, bu da ötən ilin eyni ayına nisbətən 2,8 dəfə çoxdur.
- Azərbaycanda **255 min** hektara yaxın kənd təsərrüfatı təyinatlı torpaqlar yenidən iqtisadi dövriyyəyə cəlb olunub.
- Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına indiyədək **34.600-dən çox** sahibkara **2,1 milyard** manatdan artıq güzəştli kredit verilib.

# Kiçik sahibkarların böyük arzuları

**Prezident İlham Əliyev «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda dövlət qurumlarının, iri şirkətlərin sosial məsuliyyətindən danışarkən onların kiçik sahibkarlığa, ailə biznesinə dəstək göstərməsinin vacibliyinə toxunub. Dövlət başçısı bildirib ki, bu gün bölgələrdə minlərlə insanın məşğulluğunun təmin olunmasında, gəlir əldə etməsində kiçik biznesin rolu mühüm əhəmiyyət kəsb edir. Ona görə də həmin sahəyə diqqət daha da artırılmalı, kiçik sahibkarlığın imkanlarının genişləndirilməsi üçün əməli tədbirlər həyata keçirilməlidir.**



### Sahibkarlar vergi ödəməkdən qürur duymalıdırlar

Fevralın 27-də İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Bakı Biznes Mərkəzində təşkil olunmuş kiçik sahibkarlıq subyektlərinin məhsul və xidmətlərinin sərgi-satış yarmarkasında Bakı şəhəri və regionlardan gəlmiş 300-dən çox sahibkarın istehsal və emal etdiyi qida məhsulları, müxtəlif məişət malları, əl işləri - rəsmlər, suvenirlər, bijuteriyalar, oyuncaqlar, ağacdan oymalar, geyimlər, musiqi alətləri və s. nümayiş olunmuşdur...

***Ağstafada fəaliyyət göstərən «Balçı» şirkətinin nümayəndəsi Elvin Bayramov*** yarmarkaya qatılmaq üçün 450 km yol qət edib. Bu cür satış yarmarkalarının biznesə hərəkət gətirdiyini deyən sahibkar qeydiyyatda olduğu bölgədə hər ay vaxtlı-vaxtında vergilərini ödədiyini söyləyir. İstəyi bazara saxta bal çıxaran bəzi işbazların fəaliyyətinin məhdudlaşdırılması və əsl rəqabətin təmin edilməsidir. O, iri şirkətlərin satış obyektlərində xüsusi stendlərin təşkil olunmasını təklif edir və bildirir ki, bəzi supermarketlərdə bu cür stendlər olsa da, bu, daha geniş şəkildə həyata keçirilməlidir.

***İçərişəhərdə yerləşən «Nərgiz Keramika» mağazasının sahibi Xuraman Rəşidova*** sadələşdirilmiş vergi ödəyicisidr. Vergi öhdəliklərini vaxtında yerinə yetirən sahibkar vergi orqanı əməkdaşlarından razılığını bildirir, bəyannamə və digər mühasibat sənədləri ilə bağlı çətinliyi olanda xidmət mərkəzinin əməkdaşları tərəfindən kömək aldığını qeyd edir.

***«Caspian Catering Service» şirkətinin əməkdaşı Nicat Sadıqov*** bildirir ki, təmsil etdiyi qurum 10 ildir bazarda öz yerini tutaraq kifayət qədər müştəri toplamağa nail olub. Fəaliyyəti quruda və dənizdə çalışan şirkətlərin əməkdaşlarına yüksək səviyyədə iaşə və məişət xidmətləri göstərməkdir. Müsahibimiz bildirir ki, şirkət keyfiyyətli xidmətə və sağlam qida təchizatına böyük məsuliyyətlə yanaşır. Söhbət zamanı «vergiləri vaxtında ödəyirsinizmi» sualına «qazanırıqsa, vergiləri ödəmək borcumuzdur», - deyə cavab verir. Vergi sahəsində problemlərinin olub-olmaması ilə maraqlanırıq. Narazılıq etmir, 4 faizlik sadələşdirilmiş vergini vaxtında ödədiklərini, bu vergi dərəcəsinin fəaliyyətləri üçün yaxşı stimul verdiyini bildirir. Vergi sistemində bəyannamələrin daha da sadələşdirilməsini təklif edən həmsöhbətimizin sözlərinə görə, mürəkkəb tərtibata malik sənədləşdirmənin asanlaşdırılması sahibkarları hər hansı sənədi səhv tərtib edərkən üzləşə biləcəyi sanksiyalardan qoruyar.

***Bəzək əşyaları və bijuteriya məhsullarının satışı ilə məşğul olan Rəqsanə Eyvazova*** yarmarkaya Bakıdan qatılıb. Ev şəraitində çalışdığından müştəriləri əsasən tanışları və qohumlarıdır. Satış yarmarkaları isə ona yeni fürsət yaradır, çünki burada alıcı tapır, müştərilərlə əlaqə qurur. Onun narahatlığı bəzi sərgilərin ödənişli olmasındandır. Ödənişli yarmarka kommersiya baxımından sərf etmir, qazandığını da sərginin təşkilatçılarına ödəməli olur. İqtisadiyyat Nazirliyinin təşkil etdiyi satış yarmarkalarına qatılmaq üçünsə ödəniş etmir və qazancı özünə qalır. Müsahibimiz qətiyyətlə deyir ki, hər kəs vergi ödəməkdən qürur duymalıdır!

***Müxtəlif sənət nümunələri hazırlayan Bilqeyis Məlikova*** 10 ildən artıqdır ki, Zirə qəsəbəsində fəaliyyət göstərir. Parçalardan, daha çox ipəkdən kiçik ölçülü palazlar, döşəkçələr hazırlayır. Deyir ki, dövlətin tətbiq etdiyi vergi güzəştləri onun da biznesinə dayaq olur. Xanım sahibkar ötən ildən sabit vergi ödəyicisidir və öhdəliklərinə tam və vaxtında əməl edir. O, əcnəbi turistlərin Azərbaycan sənətkarlarının məhsullarına böyük maraq göstərdiyi üçün hotellərdə ayrıca satış guşələrinin yaradılmasını təklif edir: «Ötən ilin may-iyun aylarında Bakıda, «Sabir bağı»nda təşkil edilmiş yarmarka bizim üçün çox faydalı oldu. Xüsusən də xarici ölkələrdən gələn turistlər əl işlərimizə böyük maraq göstərirdilər».

### Həm sahibkarlar pul qazanır, həm də mədəniyyətimiz təbliğ olunur

***Maraqlı əl işləri olan bijuteriya sənətkarı Xuraman Səfərova*** Sumqayıtda fəaliyyət göstərir. Yarmarkada bir neçə dəfə iştirak edib, xeyli alıcısı olub: «İstərdik ki, bu cür satış-yarmarkalar mərkəzləşdirilmiş qaydada tez-tez keçirilsin. Dövlətimiz xarici ölkələrdə Azərbaycan məhsullarının tanıdılması və təşviqi ilə bağlı tədbirlər təşkil edir. Məncə, onların sırasında kiçik və orta sahibkarların daha çox təmsil olunması önəmlidir. Hazırladığımız məhsullar Azərbaycanın ailə təsərrüfatlarının iqtisadi imkanları ilə yanaşı, milli mədəniyyətimizin təbliği, dünyaya nümayiş etdirilməsi baxımından da əhəmiyyətlidir».

***Dekorativ-tətbiqi sənətlə məşğul olan Amil Ağayev*** cənub bölgəsindəndir, taxta məmulatlarından oyma üsulu ilə müxtəlif dizaynda əsərlər hazırlayır. Öz işinin ustası olan həmsöhbətimiz 15 ildən artıqdır ki, oyma sənətinin incəliklərini nümayiş etdirir. Əsərlərində milli ənənələrimizi təsvir etməyə çalışan sənətkar əl işlərini İçərişəhərdə və paytaxtın müxtəlif yerlərində fəaliyyət göstərən mağazalara təqdim edir. Daha yaxşı qazanmaq, özünün şəxsi mağazasını açmaq arzusundadır. «Mağaza sahibi olsam, dövlətə daha çox vergi ödəyərəm», - deyir.

***Sumqayıtlı Nazilə Əbilovanın*** istəyi xarici ölkələrdə təşkil olunan yarmarkalara qatılmaqdır: «Avropanın əksər ölkələrinin hava limanlarında kiçik sahibkarların sənət nümunələrinin həftəlik satış bazarları təşkil olunur. İstərdik ki, Heydər Əliyev Beynəlxalq Hava Limanında da Azərbaycanın sənət nümunələrinin satışı təşkil edilsin. İstərdik ki, biz də ixrac missiyalarına cəlb olunaq»...

### Sahibkarlara dəstək davam etdiriləcək

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov hesab edir ki, satış yarmarkalarının ənənəyə çevrilməsi yaxın illərdə kiçik və orta sahibkarlığın inkişafında mühüm rol oynayacaq. Hazırda Azərbaycanda qeydiyyatdan keçmiş 900 mindən artıq sahibkarlıq subyektinin böyük əksəriyyəti kiçik sahibkarlardır. Onların çoxu rayonlarda çalışır. Yaxın vaxtlarda xarici ölkələrdə təşkil olunan yarmarkalara kiçik sahibkarlar da cəlb ediləcək: «Ötən il Avropa ölkələrində təşkil olunmuş sərgi-yarmarkada Azərbaycan üçün ayrılmış stenddə iqtisadiyyatımızın ayrı-ayrı sahələrini, investisiya və kənd təsərrüfatı imkanlarını nümayiş etdirən məhsullar, milli mədəniyyətimizi, incəsənətimizi və adət-ənənələrimizi əks etdirən suvenir və əşyalar yerləşdirilmişdi. Bu, ölkəmizin sahibkarlıq sektorunun təbliği baxımından çox faydalı oldu».

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində fəaliyyət göstərən «ABAD» publik hüquqi şəxsin direktoru Rüfət Elçiyev də kiçik sahibkarlığa dəstək layihələrinin genişləndirilməsinin zəruriliyini qeyd edir. Onun fikrincə, kiçik sahibkarların «ABAD»la əməkdaşlığını yaxşı nümunə kimi qiymətləndirmək olar: «Bu cür layihələr bölgələrdə satış bazarına çıxışı məhdud olan müxtəlif təsərrüfat qruplarının məhsullarının tanıdılmasında, satışında və ticarət müəssisələri ilə əlaqə yaradılmasında mühüm əhəmiyyət kəsb edir. Dekorativ-tətbiqi xalq sənətkarlığı və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən ailə biznesinə dəstək layihələri yüzlərlə insanın iş yeri ilə təmin olunmasında, qazanc əldə etməsində yaxşı təcrübədir. Hazırda «ABAD» layihəsi çərçivəsində regionlarda və iri şəhərlərdə yeni satış ünvanlarının təşkili, özüməşğulluq proqramının tətbiqi ilə bağlı işlər davam etdirilir».

> “Bu cür layihələr bölgələrdə satış bazarına çıxışı məhdud olan müxtəlif təsərrüfat qruplarının məhsullarının tanıdılmasında, satışında və ticarət müəssisələri ilə əlaqə yaradılmasında mühüm əhəmiyyət kəsb edir

### Qadın sahibkarların fəallığı artır

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova hesab edir ki, özəl bölmənin inkişafında qadın sahibkarlığının rolu az əhəmiyyət kəsb etmir, ölkəmizdə bu sahədə yaradılmış geniş imkanlar ailə təsərrüfatlarının, kiçik biznesin genişlənməsinə mühüm töhfə verir: «Sevindirici haldır ki, son illərdə kiçik və orta sahibkarlıq sektorunda qadın sahibkarların rolu xeyli artıb. Əl əməyi ilə məşğul olan qadın sahibkarların bacarıqlarının artırılmasına yönəldilmiş təşviqat xarakterli tədbirlərin və sərgilərin keçirilməsi öz müsbət nəticələrini göstərməkdədir».

**Elbrus CƏFƏRLİ**

# Qeyri-neft sektorunun inkişafında xarici investisiyanın rolu

**Azərbaycan dövlətinin apardığı iqtisadi islahatların başlıca istiqamətlərindən biri qeyri-neft sektorunun inkişaf etdirilməsi, bu sektora daha çox sərmayənin cəlb olunmasıdır.**

İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun aparıcı elmi işçisi Pərviz Heydərov mövzu ilə bağlı fikirlərini bildirərkən diqqəti xarici investisiyaların əhəmiyyətinə yönəldib: «Azərbaycan iqtisadiyyatının, xüsusilə qeyri-neft sektorunun inkişafı prioritet seçildiyi bir məqamda ölkəyə xarici investisiyaların cəlb edilməsinin olduqca böyük əhəmiyyəti var. Əvvəllər bir sıra obyektiv səbəblərdən ölkəyə xarici investisiya axınında azalma müşahidə olunsa da, bu sahədə hökumətin apardığı ardıcıl siyasət artıq öz bəhrəsini verir. Son vaxtlar ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsində canlanma var. Ölkə başçısının imzaladığı «İnvestisiya fəaliyyətinin təşviq edilməsi» və «Xarici investorların hüquqlarının qorunması» haqqında sərəncamlar bu sahəyə dövlət səviyyəsində necə böyük diqqət göstərildiyini nümayiş etdirir». Mütəxəssis qeyd edib ki, müvafiq dövlət orqanlarına tapşırıq verilib ki, ölkəyə xarici investisiyaların cəlb olunmasının daha yüksək templə artımını təmin etmək üçün qanunvericilikdən tutmuş bütün sahələr üzrə lazımi addımlar atılsın, bununla bağlı münbit şəraitin yaradılması istiqamətində ciddi tədbirlər görülsün: «Hesab edirəm ki, dövlət başçısının tapşırıqları qısa müddətdə tam yerinə yetirilsə, ölkəyə xarici investisiya axınında ciddi yüksəlişin şahidi olacağıq».

Qeyd olunub ki, bu il Azərbaycan iqtisadiyyatında makroiqtisadi sabitlik nöqteyi-nəzərindən və neftin dünya bazarında qiyməti baxımından xarici investisiyaların axınının ötən illə müqayisədə artması istisna olunmur. 2018-ci ilin ilk ayında Azərbaycan iqtisadiyyatına 460 milyon manat həcmində xarici sərmayənin yatırılması tezliklə ölkəyə investisiya axınının daha da artacağından xəbər verir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilmiş vəsaitin 408,7 milyon manatı və ya 88,9%-i Birləşmiş Krallıq, Türkiyə, Malayziya, İsveçrə, Rusiya, İran, Yaponiya, ABŞ, Norveç sərmayədarlarına məxsus olub. Rəsmi statistikaya əsasən, xarici mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitlər ölkə iqtisadiyyatına qoyulmuş cəmi investisiyanın 47,9%-ni əhatə edib.

**F.İKRAMQIZI**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Bu il mayın 8-dən 11-dək Bakıda keçiriləcək nüfuzlu Dünya Limanlar Konfransı «Gələcəyin limanları: qovşaqlar yaratmaqla, qarşılıqlı əməkdaşlığın gücləndirilməsi» mövzusuna həsr olunacaq.

Moldovada keçirilmiş beynəlxalq dequstasiya müsabiqəsində Azərbaycanın şərab məhsulları qızıl medala layiq görülüb.

Rusiya Federasiyasının ölkəmizdəki ticarət nümayəndəliyi Azərbaycan sahibkarlarını iyunun 7-10-da keçiriləcək «Kursk Koren Yarmarkası - 2018» VIII regionlararası universal topdansatış-pərakəndə yarmarkasına dəvət edib.

Martın 7-dən 11-dək Almaniya Federativ Respublikasının paytaxtı Berlində «İTB Berlin 2018» beynəlxalq turizm sərgisində Azərbaycan da təmsil olunacaq.

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Alğı-satqı müqavilələri

Alğı-satqı müqaviləsinin mahiyyəti mülkiyyətin satıcıdan alıcıya keçməsidir. Satıcı müqavilədə müəyyən edilmiş müddət çərçivəsində malı bütün aksessuarlar və sənədlərlə birgə alıcıya ötürür. Alıcı isə bu məhsulu qəbul edir və qarşılığında müəyyən məbləğ ödəməyi öhdəsinə götürür. Mövzunu hüquqşünas Əkrəm Həsənov şərh edir.

Əmtəələrin (xidmətlərin) alğı-satqısı ölkə daxilində və beynəlxalq kommersiya fəaliyyətində ən geniş yayılmış təsərrüfat əlaqələri formalarından biridir. Alğı-satqı müqaviləsi tərəflər məhsul ilə bağlı razılığa gəldiyi andan etibarən bağlanmış hesab olunur. Lakin məhsulun mülkiyyət hüququ satıcıdan alıcıya onun ötürülməsi zamanı keçir. Burada daşınmaz əmlak alğı-satqısı istisna təşkil edir. Əvvəlcədən, yaxud daha sonradan ödəniş, nisyə ödəniş mümkündür. Bu hallarda mülkiyyət hüququ, bir qayda olaraq, (müqavilədə fərqli qayda müəyyən edilə bilər) ödəniş tam başa çatana qədər satıcıda qalır.

### Nəyi almaq və satmaq olar...

İstənilən əşyanı, hətta hələ istehsal olunacaq məhsulu satmaq mümkündür. Bundan əlavə, heyvanlar və intellektual mülkiyyət də məhsul sayılır. Həm daşınmaz (torpaq, bina və s.), həm də daşınan (bütün digər məhsullar, həmçinin nəqliyyat vasitələri) əmlakı alıb-satmaq mümkündür. Silah, dərman, zinət əşyaları və dövriyyədə məhdud şəkildə iştirak edən məhsulları xüsusi icazə çərçivəsində alıb-satmaq olar.

Alğı-satqı müqavilələri üzrə əmtəə kimi dövriyyəsi məhdudlaşdırılmayan, yaxud dövriyyədən çıxarılmayan istənilən əşya iştirak edə bilər. Müqavilə yalnız müqavilə bağlanan anda satıcıya məxsus olan, eləcə də gələcəkdə satıcı tərəfindən yaradıla və ya əldə oluna biləcək əmtəənin alğı-satqısı üzrə bağlana bilər. Əgər alğı-satqı müqaviləsində başqa qayda nəzərdə tutulmayıbsa, satıcı əşyanı alıcıya verməklə eyni vaxtda onun ləvazimatını, habelə əşyaya aid olan, qanunvericilikdə və ya müqavilədə nəzərdə tutulan sənədləri də (texniki pasportu, keyfiyyət sertifikatı, istismar təlimatını və s.) verməyə borcludur.

Həm fiziki, həm də hüquqi şəxslər, eləcə də dövlət və bələdiyyə qurumları alıcı və satıcı qismində çıxış edə bilərlər.

### Müqavilənin bağlanılma forması

Kağız sənədin mövcudluğu məhsulun kim tərəfindən satılıb-alınmasından asılıdır. Məhsul daşınmaz əmlak olduqda, bir və yaxud hər iki tərəf hüquqi şəxs olduqda və s. müqavilənin yazılı forması mütləqdir. Müqavilələrin pərakəndə alğı-satqı müqaviləsi, təminat müqaviləsi, dövlət və bələdiyyə ehtiyacları üçün məhsul təminatı müqaviləsi, enerji tədarükü müqaviləsi, daşınmaz əmlakın satışı müqaviləsi, müəssisənin satışı müqaviləsi kimi növləri vardır və onların hər biri hüquqi xüsusiyyətlərə malikdir.

Mülki Məcəllənin 569-cu maddəsinə görə, alğı-satqı müqaviləsi qəti müəyyənləşdirilmiş müddətədək icra edilmək şərti ilə bağlanmış sayılır. Satıcı müqavilədə müəyyənləşdirilmiş müddət başa çatanadək və ya müddət keçdikdən sonra həmin müqaviləni yalnız alıcının razılığı ilə icra edə bilər. Alğı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmadıqda, əşyanın təsadüfən məhv olması və ya təsadüfən zədələnməsi riski, müqaviləyə uyğun olaraq, satıcının əşyanı alıcıya vermək vəzifəsini icra etmiş sayıldığı andan alıcıya keçir. Yolda olduğu vaxt satılmış əşyanın təsadüfən məhv olması və ya təsadüfən zədələnməsi riski, alğı-satqı müqaviləsində və ya işgüzar dövriyyə adətlərində ayrı qayda nəzərdə tutulmayıbsa, alğı-satqı müqaviləsinin bağlandığı andan alıcıya keçir. Əgər satıcı satılmış əşyanı alıcıya verməkdən imtina edirsə, alıcı alğı-satqı müqaviləsinin icrasından imtina edə bilər. Alıcıya verilməli əşyaların miqdarı alğı-satqı müqaviləsində müvafiq ölçmə vahidləri ilə və ya pulla ifadə olunur.

### Alğı-satqı müqaviləsi pozulduqda...

Satıcı alğı-satqı müqaviləsini pozaraq alıcıya müqavilədə müəyyənləşdirildiyindən az miqdarda əşya verdikdə, müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, alıcı çatışmayan miqdarda əşya verilməsini tələb edə və ya verilmiş əşyadan, yaxud onu ödəməkdən imtina edə, əşya ödənilmiş olduqda isə ödədiyi pul məbləğinin geri qaytarılmasını tələb edə bilər. Satıcı alıcıya alğı-satqı müqaviləsində nəzərdə tutulan miqdardan çox əşya verərsə, alıcı bu barədə satıcıya bildiriş verməlidir. Satıcı alıcının bildirişini aldıqdan sonra ağlabatan müddətdə əşyaların müvafiq hissəsinə dair sərəncam verməzsə, müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, alıcı bütün əşyaları qəbul edə bilər.

Alğı-satqı müqaviləsinə görə, satıcı alıcıya tərəflərin razılaşdıqları çeşiddə əşya verməyə borcludur. Satıcı müqavilədə nəzərdə tutulan əşyanı müqaviləyə uyğun gəlməyən çeşiddə verdikdə alıcı onları qəbul etməkdən və ödəməkdən imtina edə bilər, ödəmiş olduqda isə ödədiyi pul məbləğinin qaytarılmasını tələb edə bilər.

Satıcı alıcıya alğı-satqı müqaviləsinə əsasən keyfiyyəti, nümunəyə və ya təsvirə uyğun gələn əşya verməyə borcludur.

### Əşyanın keyfiyyətinin yoxlanılması

Dövlət standartlarının məcburi tələblərində və ya alğı-satqı müqaviləsində əşyanın keyfiyyətinin yoxlanılması nəzərdə tutulur, əşyanın keyfiyyətinin yoxlanılması qaydaları isə hüquqi normalarla müəyyənləşdirilir. Mülki Məcəllənin 587-ci maddəsinə əsasən, satıcı əşyanın qüsurları barəsində qabaqcadan məlumat vermədikdə həmin əşyanı alan alıcının ixtiyarı var ki, satıcıdan öz seçimi ilə alış qiymətinin mütənasib azaldılmasını, əşyanın qüsurlarının ağlabatan müddətdə əvəzsiz aradan qaldırılmasını, bunun üçün özünün çəkdiyi xərcin əvəzinin ödənilməsini tələb etsin. Alğı-satqı müqaviləsində satıcının alıcıya əşyanın müəyyən toplusunu dəst şəklində vermək vəzifəsi nəzərdə tutulduqda, öhdəlik dəstə daxil olan bütün əşyaların verildiyi andan icra edilmiş sayılır.

*Hazırladı:*
**F.İKRAMQIZI**

# Kənd təsərrüfatına dövlət dəstəyi artırılır

Fevralın 27-də Kənd Təsərrüfatı Nazirliyində kənd təsərrüfatı məhsullarının istehsalçılarına buğda və çəltik əkininə və istifadə etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımların, habelə hüquqi və fiziki şəxslər tərəfindən istehsalçılara satılan mineral gübrələrin, biohumusun və pestisidlərin qiymətinə tətbiq edilən güzəştin məbləğinin ödənilməsinin təmin edilməsi üzrə Respublika Komissiyasının növbəti iclası keçirilmişdir.

İclasda qeyd edilmişdir ki, son zamanlar pambıq, tütün və şəkər çuğunduru istehsalçılarının dövlət tərəfindən dəstəklənməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. İkinci ildir ki, istehsalçılara tədarükçülərə təhvil verdikləri xam pambığın hər 1 kiloqramına (kondisiya çəkisində) görə 0,1 manat, quru tütünün hər 1 kiloqramına, yaş tütünün isə hər 10 kiloqramına görə 0,05 manat, bu ildən başlayaraq şəkər çuğundurunun hər 1 tonuna görə 4 manat məbləğində subsidiya verilir. Respublika Komissiyası 23 rayon (şəhər) üzrə 15389 istehsalçıya təhvil verdikləri 207,2 min ton xam pambığa görə 20 milyon 719,30 min manat, 10 rayon (şəhər) üzrə 462 istehsalçıya təhvil verdikləri 2,5 min ton quru və 15,5 min ton yaş tütünə görə 201,1 min manat və 28 (şəhər) rayon üzrə 3235 istehsalçıya təhvil verdikləri 396,1 min ton şəkər çuğunduruna görə 1 milyon 584,6 min manat məbləğində subsidiyanın verilməsi barədə qərar qəbul etmişdir. Pambıq, tütün və şəkər çuğunduru istehsalçılarına subsidiyanın ödənilməsi məqsədilə müvafiq sənədlər Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, «Kapital Bank» ASC-yə və aidiyyəti rayon (şəhər) icra hakimiyyətlərinə və rayon (şəhər) kənd təsərrüfatı idarələrinə göndərilmişdir. Rayon (şəhər) və kənd ərazi komissiyaları üzrə subsidiya veriləcək pambıq, tütün və şəkər çuğunduru istehsalçılarının siyahısı, onların əkin sahələri, təhvil verilmiş pambıq, tütün və şəkər çuğundurunun miqdarı və hesablanmış subsidiyanın məbləği barədə məlumatlar Nazirliyin rəsmi internet səhifəsinin (http://agro.gov.az) «Subsidiyalar» bölməsində yerləşdiriləcəkdir.

Mövzu ilə bağlı sorğumuzu cavablandıran millət vəkili Eldəniz Səlimovun sözlərinə görə, ölkə iqtisadiyyatının bir hissəsini təşkil edən kənd təsərüfatının inkişafına nail olmaq üçün bir çox stimullaşdırıcı tədbirlər həyata keçirilir: «Kənd təsərrüfatı təyinatlı torpaqlardan, torpaq vergisindən başqa, heç bir vergi alınmır. Kənd təsərrüfatı məhsullarının istehsalçılarına taxılçılığa marağı artırmaq məqsədilə istifadə etdikləri yanacaq və sürtkü yağlarına görə subsidiyalar verilir. Güzəşt və yardımlar taxılçılıq, çəltikçilik, pambıqçılıq, baramaçılıq, tütünçülük, üzümçülük, bağçılıq, heyvandarlıq kimi ənənəvi sahələrin inkişafına təkan verir. Ölkəmizdə taxıl və pambıq istehsalı istiqamətində görülən tədbirlər, o cümlədən aqrolizinqlərin təşkili və onların xidmət sahələrinin genişləndirilməsi öz nəticəsini verməyə başlayıb. İldən-ilə kənd təsərrüfatı məhsullarının dünya standartlarına uyğun istehsalı artır, məhsulların ixracı prosesi asanlaşdırılır. 2017-ci ildə kənd təsərrüfatı məhsullarının ixracından Azərbaycana yüz milyonlarla dollar həcmində vəsait daxil olub. Bu, dövlət büdcəsinə daxilolmaların artımına, son nəticədə isə əhalinin rifah halının yüksəlməsinə öz təsirini göstərir».

**FƏXRİYYƏ**

# Sahibkarlara güzəştli kreditlər təklif olunur

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov jurnalistlərə müsahibəsində bildirib ki, ölkədə kiçik və orta sahibkarlığın inkişafı prioritet məsələ kimi daim diqqət mərkəzində olduğundan, hazırda bu sahənin inkişafı üçün müxtəlif güzəştli biznes-kreditlər təklif edilir: «2017-ci il ərzində 1953 sahibkara 146 milyon manat güzəştli kredit ayrılıb.

Bu günədək Azərbaycanda 4 mindən artıq qadın sahibkara 93,5 milyon manat güzəştli kredit ayrılıb. Bu isə Azərbaycanda artıq geniş sahibkar ordusunun formalaşmasından xəbər verir».

## 2018-ci ilin mart ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2018-ci ilin fevral ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsi,
- Aksiz bəyannaməsi,
- Yol vergisi bəyannaməsi,
- Mədən vergisi bəyannaməsi,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin mart ayının 27-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Xüsusi notariuslar** 2018-ci ilin fevral ayı üzrə hesabladığı gəlir vergisini **cari ilin mart ayının 27-dən gec olmayaraq** dövlət büdcəsinə ödəməlidirlər (cari ilin 1-ci rübü üzrə bəyannamə aprel ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).
- **Daşınmaz əmlakı** təqdim edin şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi **cari ilin mart ayının 27-dən gec olmayaraq** vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).
- **Muzdlu işlə əlaqədar** 2018-ci ilin fevral ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi **cari ilin mart ayının 27-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən bəyannamə illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri tərəfindən cari ilin 1-ci rübü üzrə bəyannamə aprel ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

Təqdim edilməli bəyannamələrin və vergilərin ödənilməsinin son müddəti Novruz bayramı ilə əlaqədar cari ilin mart ayının 20-dən 27-nə keçirilmişdir.

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edildikdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2015-ci ilin mart və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2018-ci ilin mart və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Aİ yüksək texnologiyalı şirkətlərdən yeni vergi tutmaq niyyətindədir

Avropa İttifaqında yüksək texnologiyalı şirkətlər üçün 1 faizdən 5 faizə qədər yeni verginin tətbiqi planlaşdırılır. «Reuters» agentliyinin yaydığı məlumata əsasən, bu vergi bütün dünya üzrə illik dövriyyəsi 579 milyon avrodan artıq olan, Avropada isə minimum 10 milyon avro təşkil edən korporasiyalar üçün nəzərdə tutulmuşdur.

Hazırda sənədin əhatə dairəsinə «Google», «Amazon», «Airbnb» və «Uber» kimi sərhədlər üzərindən fəaliyyət göstərən şirkətlər düşür. Bununla belə, yeni vergi öhdəliyi striminq xidmətləri göstərən şirkətlərə («Netflix»), eləcə də onlayn oyunlar, «bulud» texnologiyaları və ya informasiya texnologiyası xidmətləri hazırlayan müəssisələrə aid edilməyəcək.

Verginin hesablanması şirkətin ofisinin faktiki yerləşmə məkanından deyil, istifadəçilərin əsas seqmentinin harada yerləşməsindən asılı olacaq. Başqa sözlə desək, vergi reklamın harada göstərilməsinə, eləcə də reklam kontentinin tədarükçülərinin harada yerləşməsinə uyğun olaraq tutulacaq.

# CAR-da ƏDV-nin dərəcəsi artırılır

Cənubi Afrika Respublikasının (CAR) hökuməti 1993-cü ildən bəri ilk dəfə olaraq əlavə dəyər vergisinin dərəcəsinin artırılması ilə bağlı qərar qəbul edildiyi barədə açıqlama vermişdir: bu ölkədə ƏDV-nin dərəcəsi 14 faizdən 15 faizə qaldırılacaq.

Ölkənin maliyyə naziri Malusi Gigaba demişdir ki, yanacağa və dəbdəbəli əşyalara da vergilərin artırılması planlaşdırılır, bununla yanaşı, qarşıdakı üç il ərzində dövlət xərcləri mərhələli şəkildə azaldılacaq.

Vergilərin artırılması 2019-cu ildə başa çatacaq maliyyə ilində dövlət büdcəsinə 36 milyard rend (3,1 milyard ABŞ dolları) həcmində əlavə vəsait gətirəcək.

# Fərdi gəlir vergisi tutulmayacaq

Rusiya hökuməti uşağı olan ailələrdən hər ay tutulan fiziki şəxsin gəlir vergisinin ləğvi ilə bağlı qanun layihəsini bəyənmişdir. Maliyyə Nazirliyinin mətbuat xidmətinin yaydığı məlumatda bildirilmişdir: «Uşağı olan ailələrə maddi dəstəyin gücləndirilməsi məqsədi daşıyan qanun layihəsində fiziki şəxslərin gəlirlərindən vergi tutulmaması təklif olunmuşdur».

# İspaniya 2018-ci il üçün vergi planını açıqlayıb

İspaniyanın Vergi Agentliyi 2018-ci il üçün vergi və gömrük nəzarəti üzrə illik planını ictimaiyyətə açıqlamışdır. Açıqlamada yeni maliyyə ilində vergi sahəsində tətbiq olunacaq tədbirlər haqqında müfəssəl məlumat verilmişdir.

Sənəddə dörd əsas istiqamət öz əksini tapmışdır:

- qabaqlayıcı tədbirlərin görülməsi;
- yüksək riskə malik vergi ödəyicilərinin aşkar edilməsi;
- yığım prosesində fırıldaqçılıq hallarının nəzarətdə saxlanılması;
- mərkəzi və regional vergi orqanları ilə əlaqə saxlanılması.

Planda BEPS (vergi tutulan bazanın silinməsi və gəlirlərin vergidən yayındırılması) ilə mübarizə üzrə ayrıca bölmə vardır və göstərilir ki, bu il transfert qiymətqoyma ilə bağlı qaydalara riayət edilməsi üçün «sınaq fəaliyyətləri» həyata keçiriləcək. Plana əsasən, yüksək qiymətli qeyri-material aktivlərə, qrupdaxili xidmətlərə, korporativ restrukturizasiyaya və qrupdaxili maliyyə əməliyyatlarına xüsusi diqqət yetiriləcək. Bundan başqa, hibrid alətlərin istifadə olunmasından əldə edilmiş vergi üstünlüklərinin neytrallaşdırılması üçün səylər göstəriləcək: bu cür hallar ikiqat vergitutmaya və ya eyni gəlir üçün iki dəfə vergi ödənilməsinə, eləcə də vergi müqavilələrindən sui-istifadə hallarının yaranmasına səbəb ola bilər.

Planda qeyd edilmişdir ki, Vergi Agentliyi vergi dərəcələrinin aşağı olduğu yurisdiksiyaların daimi nümayəndəliklərinin yaradılmasının və onlarla sövdələşmələrin qarşısının alınması məsələlərinə daha çox diqqət yetirməli, həmçinin rəqəmsal iqtisadiyyatda inkişaf etməkdə olan biznes modellərinin təhlilini aparmalıdır.

# Özbəkistanda vergi orqanlarının səlahiyyətləri azaldılır

Dövlət başçısının «Sahibkarlıq fəaliyyətinin inkişafına dəstək sisteminin və biznes şəraitinin yaxşılaşdırılması ilə bağlı köklü təkmilləşdirmə tədbirləri haqqında» fərmanına əsasən, ölkənin Dövlət Vergi Komitəsi ticarət və xidmətlərin göstərilməsi qaydalarına əməl edilməsinə nəzarət funksiyasını yaxın zamanlarda itirə bilər. Sənəddə Vergi Komitəsi ilə yanaşı, bir sıra digər dövlət orqanlarının da səlahiyyətlərinin bir hissəsinin İstehlakçıların Hüquqlarını Mühafizə Agentliyinə verilməsi nəzərdə tutulur.

Hazırda ölkənin iqtisadi, o cümlədən vergi sistemində yeni islahatların aparılmasına başlanılmışdır. Baş Nazir Abdulla Aripovun rəhbərlik etdiyi xüsusi komissiya bu il aprelin 1-dək vergi və büdcə siyasətinin təkmilləşdirilməsi ilə bağlı Konsepsiya, iyulun 1-dək isə yeni redaksiyada Vergi Məcəlləsi layihəsinin hazırlanmasını başa çatdırmalıdır.

Bu sənədlərdə fiziki şəxslərin gəlir vergisinin hesablanması mexanizmlərinin sadələşdirilməsi, kiçik və iri biznes subyektləri üçün vergi yükünün maksimum cilalanmasına şərait yaradan metodların tətbiqi, ümumi vergi yükünün azaldılması, istehsal və xidmət sektorunun inkişafında vergilərin stimulverici rolunun gücləndirilməsi, qeyri-səmərəli vergi və yığımların ləğvi kimi məsələlərə yenidən baxmaq nəzərdə tutulur.

# Rusiyada deoffşorizasiyanın əsas məqamları



Son vaxtlar dünyanın iqtisadi gündəliyində daha çox aktuallaşan mövzulardan biri də offşor zonalar vasitəsilə vergidən yayınma hallarına qarşı görülən tədbirlərdir. İndi bu sahədə həm nüfuzlu beynəlxalq iqtisadi qurumlar, həm də ayrı-ayrı ölkələr səviyyəsində ciddi işlər görülür, qanunvericilik bazasında təkmilləşdirmələr aparılır. Həmin işlərin əsas məqsədi vergi yığımının yüksəldilməsi, cinayət yolu ilə əldə edilən «çirkli» pulların qanuniləşdirilməsinin qarşısının alınması, eləcə də iqtisadi münasibətlərdə şəffaflığın artırılması, dünya iqtisadiyyatına təsir göstərmək gücündə olan şirkətlərin fəaliyyətinə aydınlıq gətirilməsidir.

Bu sahədə iri iqtisadiyyata malik ölkələrin ciddi tədbirlər görməsi xüsusi əhəmiyyət daşıyır. Belə ölkələrdən biri də Rusiya Federasiyasıdır. Dünyanın yeni iqtisadi reallıqlarını nəzərə alan Rusiyada xarici müəssisələrin gəlirlərindən vergi tutulması üçün qəbul edilmiş qaydaların əsas məqamları məlum olmuşdur.

«deloitte.com» saytının şərhində bildirilir ki, yeni qaydalara əsaəsn, nəzarət edilən xarici şirkətlər (Rusiya rezidentləri tərəfindən qismən nəzarət olunan müəssisələr) üçün səhmdarlar arasında bölünməmiş gəlirlərə qoyulan vergi 13 faizə (əgər şirkətə fiziki şəxs nəzarət edirsə) və ya 20 faizə (əgər şirkət başqa bir şirkətin nəzarətindədirsə) qədər ola bilər.

Şirkətlərin gəlirlərindən vergilərin tutulması dividendlərin ödənilməsi yolu ilə azaldıla bilər. Rusiyada gəlirləri vergiyə cəlb olunan şirkətlərin ödədikləri dividendlər vergidən azad edilə bilər: bu şərtlə ki, müəssisənin dividendlərin ödənildiyi gəlirləri ilə bağlı bəyannamə təqdim edilmiş olsun, eləcə də şirkət sənədlə təsdiq edilməsi mümkün olan müvafiq vergiləri ödəmiş olsun.

Nəzarət edən rezident şəxsin əldə etdiyi gəlir aşağıda göstərilmiş şərtlərdən birinə uyğun olarsa, həmin rezident Rusiyada məcburi vergi ödəməkdən azad edilir:

- şirkət kommersiya qurumu deyilsə və əldə edilən gəliri səhmdarlar arasında bölüşdürmürsə;
- nəzarət edilən xarici şirkət Qazaxıstan, Belarus, Ermənistan və Qırğızıstan kimi dövlətlərdən birində vergi ödəyirsə;
- müəssisə Rusiyanın ikiqat vergitutmanın aradan qaldırılması ilə bağlı müqavilə imzaladığı yurisdiksiyanın rezidentinə (Rusiya Federasiyası ilə vergilərə dair informasiyanı mübadilə etməyən ölkələr istisna olunmaqla) aiddirsə.

Offşorlaşmanın aradan qaldırılması ilə bağlı qanunlar Rusiya ərazisində qeydiyyatda olan daşınmaz əmlakdan əldə edilən gəlirlərdən vergi tutulması sahəsində də yeni qaydaların tətbiq edilməsinə səbəb olmuşdur. Bu qaydalara uyğun olaraq, şirkətin səhmlərinin satışından Rusiyadakı daşınmaz əmlaka aid aktivlərin 50 və ya daha artıq faizini əldə etdiyi kapitalın artımı gəlir vergisinin subyektidir. Bu verginin dərəcəsinin isə 20 faizədək olduğu qeyd edilir.

Bundan əlavə, yeni qaydalar Rusiyada daşınmaz əmlak sahibi olan hüquqi və qeyri-hüquqi şəxslər üzərinə öz səhmdarlarının adlarını açıqlamaq öhdəliyi qoyur.

# Çində ƏDV islahatı özünü doğruldub

Çin Xalq Respublikasının vergi administrasiyasının ictimaiyyət üçün açıqlamasında qeyd edilmişdir ki, mənfəət vergisinin əlavə dəyər vergisi ilə əvəz olunması sayəsində müəssisələr 2 trilyon yuan (317 milyard ABŞ dolları) məbləğində vəsaitə qənaət etmişlər.

Bundan əlavə, sahibkarlar və innovasiya şirkətləri üçün vergi güzəştləri 2017-ci ildə vergi yükünü daha 500 milyard yuan (79,4 milyard ABŞ dolları) azaltmışdır.

Vergi yığımındakı artım isə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 8,7 faiz artmışdır.

Qeyd edək ki, Çində mənfəət vergisinin əlavə dəyər vergisi ilə əvəz olunması 2012-ci ildə pilot layihə kimi başlanılmış, 2016-cı ildən isə bütün ölkə ərazisində tətbiq edilmişdir.

# Yaponiya kriptovalyuta gəlirlərinə vergi hədlərini müəyyənləşdirib

Dünyada kriptovalyutanın tərəfdarlarından biri kimi qəbul edilən Yaponiya hökuməti fiziki şəxslərin rəqəmsal valyuta əməliyyatlarından əldə etdikləri gəlirlərdən vergi tutulması ilə büdcəyə əlavə vəsait cəlb olunmasını planlaşdırır. Ölkənin vergi idarəsi kriptovalyuta əməliyyatlarından gələn gəlirləri «digər gəlirlər» bölməsinə salaraq kriptovalyuta istifadəçilərindən xahiş etmişdir ki, məlumatı özlərinin keçən ilə aid bəyannamələrinə daxil etsinlər. Onu da deyək ki, Yaponiyada keçən ilin gəlirlərinə aid bəyannamələrin təqdim olunmasına artıq fevralın 16-dan başlanmışdır və bu proses martın 15-dək davam edəcəkdir.

Yaponiya hökumətindən bildirilmişdir ki, rəqəmsal valyuta əməliyyatlarından əldə edilən gəlirlərə görə 15 faizlə 55 faiz diapozonunda vergi tutulacaq. Maksimum dərəcə il ərzində kriptovalyutadan 365 min dollardan (ilin hər gününə min dollar) artıq qazanc əldə edənlərə tətbiq olunacaq.

krossvord



**Yuxarıdan aşağı:** 1.XVII əsrdə Fransada yaranmış memarlıq və incəsənət üslubu; 2.İran İslam Respublikasının birinci dini lideri və qurucusu; 3.Birləşmiş Millətlər Təşkilatının 7-ci Baş katibinin soyadı; 4.Azərbaycanın xalq artisti, tanınmış opera müğənnisinin soyadı; 6.Çilidə vulkan adı; 7.Respublikamızda rayon; 9.Tək, yeganə; 13.Əlavə ünsiyyət vasitəsi kimi tətbiq edilən əl-qol hərəkəti, mimika; 15.Mətbəx mebelinin bir hissəsi. Qab-qacaq saxlamaq üçün xüsusi dolab; 16.«Kurtlar vadisi»nin baş qəhrəmanı, Polad Ələmdar obrazını canlandıran türk aktyorun adı; 17.Katolik kilsələrində yüksək ruhani vəzifələrdən biri; 18.Məşhur fransız landşaft arxitektoru. Versal bağlarının müəllifi; 20.Məhvolma həddində olan pişikkimilər fəsiləsinin qar bəbirləri cinsinə aid heyvan növü; 21.Adətən, sirk tamaşalarında iştirak edən komik artist. **Soldan sağa:** 1.Məşhur rus bəstəkarı, pianoçusu və dirijoru; 5.Notlardan biri; 8.Azərbaycan simli musiqi alətlərindən biri; 9.Kişi adı. Qurtulma, azadolma mənalarını verir; 10.İranda şəhər; 11.Rusiya Federasiyasında Salexard şəhərinin 1933-cü ilə qədər olan adı; 12.Əmtəə, xammal, qiymətli kağızların satışı ilə məşğul olan, vaxtaşırı fəaliyyət göstərən topdan bazar; 14.Üzgüçülük idman növündə üzmə üsulu; 19.Müxtəlif meyvələrdən hazırlanmış cavanlaşdırıcı xüsusiyyətə malik içki; 21.Polşada şəhər; 22.RF-nin Primorsk diyarında çay; 23.Amazon çayı hövzəsində yerləşdiyi iddia olunan əfsanəvi şəhər. Əfsanəyə görə, bu şəhərdə hər şey qızıldan hazırlanıb; 24.Latın əlifbasında 24-cü hərfin deyilişi. Tənlikdə naməlum rəqəm, qrafiklərdə isə absis oxlarından birinin deyilişi; 25.Partlayıcı qurğunun elementi.



*«Kurtlar vadisi»ndən epizod*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Tamara *(Gözəlova)*; 2.Tilidin; 3.Akanf; 4.İzırak; 5.Lokarno; 6.Nazif; 7.Dekabr; 13.Kant *(İmmanuel)*; 15.Kolorit; 16.Psixoz; 17.Früauf *(Rüland)*; 18.Jdanov; 20.Livan; 21.Mədən. **Soldan sağa:** 1.Tetrasiklin; 8.Multanı; 9.Kazak; 10.Rədif; 11.Aerofob; 12.Oniks; 14.Mokko; 19.Silindr; 21.Milad; 22.Xivə; 23.Mandarin; 24.Zan; 25.İnfinitiv.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

## idman

# Bakıda veloyürüş keçirilib

5 Mart - Bədən Tərbiyəsi və İdman Günü münasibətilə Gənclər və İdman Nazirliyinin və Azərbaycan Velosiped İdmanı Federasiyasının birgə təşkilatçılığı ilə veloyürüş keçirilib.



Startdan əvvəl veloyürüş iştirakçılarını salamlayan gənclər və idman naziri Azad Rəhimov Bədən Tərbiyəsi və İdman Günü mübasibətilə onları təbrik edib. Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını deyən nazir bildirib ki, respublikamızda idmana dövlət səviyyəsində yüksək diqqət və qayğı göstərilir.

Şəhidlər xiyabanından start götürən veloyürüşə ümumilikdə 50-dən çox iştirakçı, o cümlədən federasiyanın nəzdində fəaliyyət göstərən klub və cəmiyyətlərin üzvləri, eləcə də həvəskar velosipedçilər qatılıblar. Veloyürüş Fəvvarələr meydanında başa çatıb.

Azərbaycan Velosiped İdmanı Federasiyası mütəmadi olaraq müxtəlif dövlət və ictimai qurumlarla birlikdə dövlət əhəmiyyətli və əlamətdar günlərdə veloyürüşlər təşkil edir. Federasiya Dövlət Bayrağı Günü, Azərbaycan Gəncləri Günü, peşə bayramları günü, Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə silsilə yürüşlər reallaşdırıb.

# Vergi orqanı əməkdaşları idman sahəsində də fərqlənirlər

Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Milli Olimpiya Komitəsində (MOK) 5 Mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə tədbir keçirilib. Gənclər və idman naziri Azad Rəhimovun və MOK-un birinci vitse-prezidenti Çingiz Hüseynovun da qatıldığı mərasimdə bir sıra idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim olunub.

Mükafatçılar sırasında powerliftinq üzrə dördqat dünya, yeddiqat Avropa çempionu, dünya rekordçusu, Prezident mükafatçısı Vüqar Namazovun da adı yer alıb. O, Azərbaycan Respublikasının «Əməkdar idman ustası» fəxri adına layiq görülüb. V.Namazov Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin Mühafizə və xidmət idarəsinin müvəkkili vəzifəsində çalışır, kiçik ədliyyə müşaviridir.

Mükafatlandırma mərasimində Azərbaycan Respublikası Səmti Müəyyənetmə İdman Federasiyasının prezidenti Mirəli Kazımov da idman sahəsində göstərdiyi xidmətlərə görə Gənclər və İdman Nazirliyi tərəfindən Fəxri fərmanla təltif olunub. M.Kazımov Vergilər Nazirliyinin Tədris Mərkəzinin elmi-tədqiqat işləri üzrə rəis müavini vəzifəsində çalışır, baş vergi xidməti müşaviridir.

Həmkarlarımızı təbrik edir, müstəqil dövlətimizin inkişafı naminə həm vergi orqanında, həm də idman sahəsində yeni-yeni uğurlar diləyirik!





# Azərbaycan paytaxtı daha bir mötəbər turnirə ev sahibliyi edəcək

Beynəlxalq arenada gimnastika tədbirlərinin yüksək səviyyəli təşkilatçısı kimi tanınan Azərbaycan Gimnastika Federasiyasına (AGF) idmanın bu növü üzrə daha bir Dünya kuboku yarışlarının keçirilməsi həvalə olunub.

Federasiyanın yaydığı xəbərə görə, gimnastika həvəskarları 2018-ci ildə tanınmış bədii və idman gimnastları, batutçular və tamblinqçilərlə yanaşı, artıq Bakıda yerli gimnastlarımızın, eləcə də əcnəbi akrobatların da çıxışlarını izləmək şansı əldə edəcəklər. Belə ki, cari il noyabrın 17-18-də Milli Gimnastika Arenası (MGA) ilk dəfə olaraq akrobatika gimnastikası üzrə dünya kuboku yarışlarına ev sahibliyi edəcək. Bu yarışın ölkəmizə həvalə olunması ilə bağlı qərar Beynəlxalq Gimnastika Federasiyasının (FIG) İcraiyyə Komitəsinin İsveçrənin Lozanna şəhərində keçirilmiş iclasında yekdilliklə qəbul edilib.

Yarışda iştirak edəcək gimnastlar kişi, qadın və qarışıq cütlüklərin, həmçinin qadın və kişi qrupların tərkibində mübarizə aparacaqlar. Bununla da MGA-da bu ilin beynəlxalq yarışlar mövsümü akrobatların çıxışları ilə başa çatacaq.

Xatırladaq ki, Bakıda martın 15-18-də idman gimnastikası üzrə Dünya kuboku, aprelin 12-15-də batut gimnastikası, tamblinq və ikili-mini batut üzrə Avropa çempionatı, aprelin 23-24-də bədii gimnastika üzrə «AGF Junior Trophy» adlı beynəlxalq turnir, həmin ayın 27-29-da bədii gimnastika üzrə Dünya kuboku, iyunun 22-23-də isə gənclər arasında Olimpiya Oyunlarına idman gimnastikası üzrə Avropa təsnifat yarışları keçiriləcək.

# Mötəbər turnirdə möhtəşəm qələbə



Azərbaycanın və «Qəbələ» idman klubunun peşəkar kikboksçusu Alim Nəbiyev növbəti döyüşünü keçirib. İdmançımız «Glory» seriyasında təşkil olunan yarışda qüvvəsini sınayıb. A.Nəbiyev Hollandiyanın Rotterdam şəhərində təşkil olunan «Glory51» turniri çərçivəsində kamerunlu Sedrik Doumbe ilə üz-üzə gəlib. Yarımorta çəki dərəcəsində baş tutan 3 raundluq döyüşün qalibi hakimlərin rəyi ilə müəyyənləşib. Mötəbər turnirdə 2:1 hesabı ilə qalib gələn həmyerlimiz qələbə seriyasını davam etdirib. Xatırladaq ki, bu, idmançımızın «Glory» seriyasında keçirdiyi 3-cü döyüşdə 3-cü qələbəsidir.

## mozaika

texnologiya

# Mobil cihazlar havadan yüklənir



ABŞ-ın Massaçusets Texnologiya İnstitutunun mühəndisləri atmosferdən elektrik enerjisi alan qurğu hazırlayıblar. Yeni qurğu hava temperaturunun gündəlik dəyişkənliyinə əsasən fəaliyyət göstərir. Qurğu grafen təbəqə ilə örtülmüş və xüsusi mum ilə doldurulmuş mis və nikeldən ibarət metal köpükdən hazırlanıb. Cihazın bir tərəfi istilik yayır, digər tərəfi isə istiliyi özündə saxlayır. Belə temperatur dəyişkənliyi elektrik enerjisi istehsal etməyə imkan verir.

Mütəxəssislərin sözlərinə görə, bu termal rezonator ən yüksək istilik ətalətinə malikdir. Yaxın gələcəkdə alimlər mobil cihaz və smartfonları enerji ilə təmin etmək məqsədilə qurğunun gücünü artırmaq niyyətindədirlər.

# Daha ucuz qiymətə...

«Apple» şirkəti tərəfindən bu il təqdim olunacaq yeni MacBook Air modelinin əsas üstünlüyü onun qiyməti olacaq. Hal-hazırda şirkət yalnız köhnə ekrana, korpusa və yenilənmiş prosessora sahib MacBook Air 13 modelini satır. Şirkətin rəsmi online mağazasında sözügedən modelin qiyməti 1000$ təşkil edir. Yeni model isə daha ucuz qiymətə satılacaq. Bildirilir ki, bu üsulla şirkət 2018-ci ildə noutbookların satışını 10-15% yüksəldə biləcək.

Şirkət iki yeni iPad modelini də təqdim etməyi planlaşdırır. Çox güman ki, «Apple» bu cihazlar üçün ayrıca bir tədbir təşkil etməyəcək və sadəcə olaraq, yeni modelləri öz online mağazasına əlavə edəcək.

Keçənilki iPad və qırmızı iPhone 7 modelləri də məhz bu yolla təqdim olunmuşdu.

cəmiyyət

# «Göydən gələn» viruslar



Alimlər virusların əksəriyyətinin atmosferdə toplandıqdan sonra Yer üzünə düşdüyünü açıqlayıblar.

Kanada, İspaniya və ABŞ-dan olan elm adamlarının apardığı araşdırma nəticəsində virusların toz buludları və okean suyunun buxarının vasitəsilə atmosferə daşındığı, orada bir müddət qaldıqdan sonra yer üzünə yağdığı məlum olub.

Kanadanın Britiş Kolumbiya Universitetinin əməkdaşı Kartis Satl bildirib ki, Yer kürəsinin sərhəd qatında hər kvadratmetrə gün ərzində ən azı 800 milyon virus toplanır. Bu isə Kanadada adambaşına 25 növdə virus düşdüyü anlamına gəlir. Təxminən 20 il əvvəl genetik olaraq oxşar virusların dünyanın bir çox fərqli bölgələrində aşkarlandığını qeyd edən mütəxəssis, bunun virusların atmosferdə səyahət etdiyini göstərdiyini deyib.

İspaniyanın Qranada Universitetinin ətraf mühit üzrə alimi İsabel Rexe virusların atmosferdə yayılandan sonra yağış və toz şəklində yerə düşdüyünü söyləyib.

araşdırma

# Yaşıllıq və insan beyni



Barselonada aparılan yeni tədqiqatlar göstərir ki, yaşıllıqlar uşaqların beyninin inkişafına müsbət təsir edir. Yaşıllıqlar sayəsində onlarda diqqət və işçi yaddaş yaxşılaşır.

253 məktəblinin iştirak etdiyi tədqiqatda onlara maqnit-rezonans tomoqrafiyası edilib. Uşaqları, həmçinin, diqqət və işçi yaddaşın yoxlanılması məqsədilə kompüter testindən keçiriblər. Müşahidə olunub ki, yaşıllıqlar əhatəsində yerləşən evlərdə yaşayan ibtidai sinif şagirdlərində beynin müəyyən hissələrində ağ və boz maddələr çoxdur. Bu xüsusiyyətlərin inkişaf etmiş koqnitiv funksiyalara (yaddaş, diqqət, əsaslandırma, iradə, inam) aidiyyəti var idi. Yaşıllıqlar əhatəsində yaşayan uşaqlarda ağ və boz maddələrin həcminin maksimal artması onlarda işçi yaddaşın və diqqətsizlik dərəcəsinin azalması ilə bağlı idi.

Mütəxəssislərin sözlərinə görə, yaşıllıqlar insan psixikası üçün faydalıdır. Onlar kreativliyin və təhqiqat fəaliyyətinin inkişafını stimullaşdırır. Həmçinin yaşıllıq çox olan ərazilərdə havanın çirklənməsi və səs-küy daha aşağı səviyyədədir ki, bu da bilavasitə uşaqların beyninə təsir edir.

maraqlı

# Qəribə təsadüflər

**Mark Tven və Qalley kometi**

1835-ci ildə Qalley kometi Yerin yaxınlığından keçən gün məşhur yazıçı Mark Tven dünyaya gəlir. 1910-cu ildə - komet növbəti dəfə Yer kürəsinin yaxınlığından keçdiyi gün yazıçı vəfat edir. 1909-cu ildə yazıçı öz ölüm xəbərini yazmışdı: «Mən dünyaya Qalley kometasi ilə gəlmişəm və gələn il həmin komet ilə dünyanı tərk edəcəyəm».

**Qatardakı yad adamlar**

1920-ci ildə qatarda eyni kupedə üç ingilis səyahət edirdi. Tanışlıq zamanı qəribə bir təsadüf ortaya çıxır: sərnişinlərdən birinin soyadı Binkhem, ikincisinin soyadı Pauell, üçüncüsünün soyadı isə Binkhem-Pauell idi. Onların bir-biri ilə heç bir qohumluq əlaqəsi yox idi.

**Kral Umbertonun ikinci siması**

İtaliya kralı I Umberto nahar etmək üçün Montsa şəhərində kiçik bir restorana daxil olur. Hörmət əlaməti olaraq, kralın sifarişini restoran sahibi qəbul edir. Restoran sahibi həm bədən quruluşu, həm də sifət cizgiləri ilə krala çox bənzəyirdi. Onlar bir qədər söhbətdən sonra başqa oxşar cəhətlər də aşkar edirlər: həm kral, həm də restoran sahibi eyni ildə, eyni gündə və eyni şəhərdə anadan olmuşdular - 1844-cü il martın 14-də. İkisinin də həyat yoldaşının adı Marqarita idi. Restoran I Umbertonun tacqoyma mərasimi günü açılmışdı.

Lakin oxşarlıqlar təkcə bununla bitmir. 1900-cü ildə Umbertoya xəbər çatır ki, restoran sahibi bədbəxt hadisə nəticəsində açılan güllədən ölüb. Başsağlığı verməyə macal tapmamış kralın karetasını əhatə edən camaatın içindən bir anarxist atəş açaraq onu öldürür.

**Kitab sahibini tapdı**

1920-ci ildə yazıçı Enni Perriş Parisdə istirahət edərkən kitab mağazasında sevdiyi uşaq kitabı «Cek Frost və başqa hekayələr»i alır. Enni kitabı ərinə göstərərək uşaqlıqda onu çox sevdiyindən danışır. Əri kitabı Ennidən alaraq titul vərəqindəki yazını oxuyur. «Enni Perriş, 209 H. Uebberstrit, Kolorado Sprinqs». Bu, kiçik yaşlarında Enniyə məxsus olan həmin kitab idi!

**Müdriklər deyib ki...**

*«Adi insan vaxtı necə keçirmək barədə düşünür, istedadlı insan isə vaxtdan istifadə etməyə çalışır»*

*Artur Şopenhauer (1788-1860)*

